

## İtaliyalı senator:
**“Ermənistanın Qarabağla bağlı razılaşmaları pozması çox acınacaqlıdır”**

2

# O Suqovuşan, bu Suqovuşan...



3

Səs
№ 054 (6495) 31 mart 2022-ci il. Qiyməti 60 qəpik




4

## “Soyqırım:
**Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda elmi-praktiki konfrans keçirilib**

# 31 Mart soyqırımı
## bəşər tarixində ən qanlı faciələrdən biridir



9



# Suares Messinin rekordunu qırdı!

16

# Ermənistana Qərbdən zərbə!



9



**Çaylardan sui-istifadə qaydaları müəyyənləşdi - YENİLİK NƏDİR?**

10

Azərbaycanda artıq çaylara və digər su mənbələrinə nasoslar qoyub su götürmək üçün pul ödəmək lazım...



**Erkən yaşda uşaq dünyaya gətirmək-valideyn məsuliyyətsizliyi, yoxsa...**

11

Ana olmaq üçün ideal reproduktiv yaşın 20-30 arası olduğu müəyyən edilib. Mütəxəssislər, 35 yaşdan sonra gec yaşda...

# Böyük Britaniya Azərbaycanla əlaqələrə xüsusi önəm verir

*Prezident İlham Əliyev Böyük Britaniyanın Silahlı Qüvvələr nazirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.**

Görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlətimizin başçısının Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edilib. Bildirilib ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi ”Qətiyyətli dəstək” missiyasında Azərbaycanın iştirakı qeyd edilib. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə post-münaqişə dövründə gedən proseslər barədə danışıb.



# İtaliyalı senator:
## “Ermənistanın Qarabağla bağlı razılaşmaları pozması çox acınacaqlıdır”



martedì 29 marzo 2022 Select Your Language LOGIN ABBONAMENTI

agenzia NOVA

ULTIM'ORA Ue: Patuanelli, revisione Pac? Meglio rinvio, ragionare su indipendenza agrolimentare europea

INTERNI ESTERI ECONOMIA ROMA MILANO NAPOLI TORINO SARDEGNA VENETO ENERGIA DIFESA INFRASTRUTTURE ARCHIVIO

ANALISI: Atlantide, Mezzaluna, Cuor d'Africa, Capitolium
RUBRICHE: Business News, Speciale energia, Speciale difesa, Speciale infrastrutture

AZERBAIGIAN

**Azerbaigian: Papatheu (FI), deplorevole che Armenia violi accordi sul Karabakh**

*Roma, 28 mar 12:00 - (Agenzia Nova)* - "E' deplorevole che in un momento drammatico come quello che stiamo vivendo l'Armenia abbia violato quanto prevede la Dichiarazione trilaterale con cui due anni fa si è posta la parola fine al conflitto nel Karabakh. Unità militari armene hanno, infatti, tentato nei giorni scorsi un atto di sabotaggio". Lo sottolinea in una nota la senatrice di Forza Italia e vicepresidente della Delegazione italiana presso l'Assemblea parlamentare dell'Iniziativa centro europea, Urania Papatheu. "E' fondamentale, dunque, che ci sia il ritiro delle parti restanti dell'esercito dell'Armenia e dei gruppi armati armeni dai territori dell'Azerbaigian che sono stati riconosciuti dalla comunità internazionale", continua la parlamentare di FI.

(Com) © *Agenzia Nova - Riproduzione riservata*

[«Torna indietro]

TUTTE LE NOTIZIE SU..: GRANDE MEDIO ORIENTE, EUROPA, AFRICA SUB-SAHARIANA, ASIA, AMERICHE

Diplomazia Economica Italiana

النشرة العربية



AZERBAIGIAN, PAPATHEU (FI): DEPLOREVOLE CHE ARMENIA VIOLI ACCORDI KARABAKH

AZERBAIGIAN, PAPATHEU (FI): DEPLOREVOLE CHE ARMENIA VIOLI ACCORDI KARABAKH

**İtaliyanın ”İrəli İtaliya” (Forza Italia) partiyasının Senatdakı siyasi qrupunun rəsmi internet səhifəsində həmin partiyanın üzvü senator Urania Papatheunun Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulmasını pisləyən və Azərbaycanı dəstəkləyən açıqlaması dərc olunub.**

AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən Qarabağda bir neçə gün öncə sabotaja cəhd edildiyini bildirən italiyalı senator dünyanın hazırkı dramatik vəziyyətində iki il öncə Qarabağ münaqişəsinə son qoyan üçtərəfli Bəyanatın müddəalarının Ermənistan tərəfindən pozulmasının çox acınacaqlı olduğunu qeyd edib.

Senator açıqlamasında Ermənistanın silahlı qüvvələrinin qalıqlarının və qanunsuz erməni silahlı qruplarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmasının çox vacib olduğunu da vurğulayıb.

Senatorun açıqlaması İtaliyanın aparıcı xəbər agentlikləri (”Adnkronos”, ”La Presse”, ”AGI”, ”Agenzia Nova”, ”9Colonne”, ”Dire”, ”Askanews”) tərəfindən də yayımlanıb.



Martedì 29 marzo 2022, ore 19:29
Seguici su

Conquiste del Lavoro — Quotidiano di informazione socio-economica

Sindacato Economia Vertenze Global Cultura Politica Dibattito Contratti Attualità Pubblico Impiego Pensioni

BREAKING NEWS Malpezzi (Pd): disponibili a confronto, serve compattezza. "Inattaccabile scelta presidente Pinotti" 19:24 Roma, assessore all

Conquiste del Lavoro / Breaking News

**Azerbaigian, Papatheu (Fi): deplorevole che Armenia violi accordi "Ritirare parti restanti dell'esercito"**

Roma, 28 mar. (askanews) - "E' deplorevole che in un momento drammatico come quello che stiamo vivendo l'Armenia abbia violato quanto prevede la Dichiarazione trilaterale con cui due anni fa si è posta la parola fine al conflitto nel Karabakh. Unità militari armene hanno, infatti, tentato nei giorni scorsi un atto di sabotaggio". Lo sottolinea in una nota la senatrice di Forza Italia e vicepresidente della Delegazione italiana presso l'Assemblea parlamentare dell'Iniziativa centro europea, Urania Papatheu. "E' fondamentale, dunque, che ci sia il ritiro delle parti restanti dell'esercito dell'Armenia e dei gruppi armati armeni dai territori dell'Azerbaigian che sono stati riconosciuti dalla comunità internazionale", continua la parlamentare di FI.

*( 28 marzo 2022 )*

Stampa Pagina — Inizio Pagina

E-dicola
Conquiste del Lavoro
Un giorno nuovo



# Əbdülfəttah əs-Sisi:
## “Misirin və Azərbaycanın mənafeləri naminə birgə işləmək bizim üçün çox vacibdir”

**Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Misir ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının otuzuncu ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə Misirin və Azərbaycanın mənafeləri naminə qarşılıqlı maraq kəsb edən sahələrdə birgə işləməyin çox vacib olduğu vurğulanır.**

Təbrik məktubunda deyilir: ”Ölkələrimiz arasında ikitərəfli münasibətlər həmişə konstruktiv əməkdaşlıq və qarşılıqlı hörmətlə səciyyələnib, eyni zamanda, Misir və Azərbaycan dövlətlərinin və xalqlarının ümumi maraqlarına nail olmaq üçün ciddi iş aparılıb. Həmçinin iki ölkə arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq mühüm nailiyyətlərin əldə edilməsində həmişə səmərəli və uğurlu olub, indi də davam edir.

Misirin və Azərbaycanın, eləcə də onların dost xalqlarının mənafeləri naminə qarşılıqlı maraq kəsb edən sahələrdə, xüsusilə enerji, tikinti, əczaçılıq sənayesi və mədənçıxarma sahələrində ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi üçün birgə işləmək bizim üçün çox vacibdir”.

# O Suqovuşan, bu Suqovuşan...





**2020-ci il oktyabrın 3-də ordumuzun Suqovuşanla bağlı qələbə xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdən aldıq: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!" Dövlətimizin başçısı dərhal Madagizin tarixi adını bərpa etdi. Madagiz Suqovuşan adlandırıldı. Onlarla Vətən oğullarının həyatlarını itirdikləri Suqovuşanda bu gün Azərbaycan bayrağı dalğalanır. Suqovuşanın işğaldan azad olunması bir elin yurd haqqına qovuşması idisə, həm də canlarını Vətən torpaqları uğrunda qurban verən Azərbaycan övladlarının düşməndən alınan qisası idi.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalını alovlandırmaları iki il önceki qələbə üzərinə yeni bir qələbənin əlavə edilməsi dəyərində oldu. Azərbaycan Prezidentinin Novruz bayramı münasibətilə doğma yurd yerindən xalqa təbriki və "İkinci dəfədir ki, tarixi Zəfərimizdən sonra biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edirik. Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, İnşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu, reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada - Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Novruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik" kimi dəyərli fikirləri ürəyimizi dağa döndərdi. Qürur duyduğum bu an xəyalım istər-istəməz o Suqovuşanla bu Suqovuşan arasında dolanmağa başladı.

## O Suqovuşan

30 ilədək yol gözləyən yurd yerlərimizdən biri idi Suqovuşan. Bədnam ermənilər tərəfindən adı dəyişdirilib Madagiz qoyulan Suqovuşan. Qədim abidələri ilə zəngin tarixli, həmçinin bol günəşli, oksigenli, sulu, yaşıl düzlü-çəmənli, bərəkətli torpaqlı, coğrafi üstünlüklərə malik Suqovuşan.

90-cı illərdə ermənilərin Azərbaycana qarşı başladıqları işğalçılıq siyasətinin qurbanı olan Suqovuşan 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunsa da, 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun könüllülər dəstəsi yenidən onu işğal etmişdi. Aprel döyüşləri zamanı Qarabağda formalaşdırılan beşinci müdafiə rayonu hərbi hissəsi Qarabağ döyüşlərində bir çox təxribatçı əməliyyatlarda iştirak etmişdi və azad edilənədək işğalçı Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu. 10-cu dağatıcı diviziyanın tərkibinə daxil idi. Ehtimal edilir ki, hərbi hissə Ağdərəyə yaxın ərazilərdən Madagiz yaşayış məntəqəsi hüdudlarınadək döyüş növbətçiliyinə cəlb olunurdu. Bura aprel döyüşlərində Azərbaycan ordusunun əsas hədəflərindən biri olub. Bundan başqa erməni ordusunun 6-cı müdafiə rayonu kimi qeyd etdiyi hərbi hissə də Suqovuşanda yerləşirdi.

Acgöz erməni xisləti ilə bu yurdun yurddaşları da səpələnmişdilər Azərbaycanın ayrı-ayrı bölgələrinə. Cənnətməkan ata-baba ocaqlarına həsrət qalmışdılar. Torpaqlarının ətrini əsən küləklərdən alırdılar. Bu küləklər gətirirdimi o ətri?.. Xeyr, gətirmirdi. 30 ilədək zaman fasiləsindən sonra biz o küləklərə doğru getməli olduq. Getdik və gedişimiz, bu yurd yerimiz yazmağa başladığımız şanlı "Qarabağ" dastanının "Suqovuşan" adlı boyu oldu.

## Qara kürü istehsalı və ya Suqovuşan sularında üzən xəyallar

Hələ 2020-ci ilin payızında Suqovuşanın işğaldan azad olunması münasibətilə yazdığım "Qarabağ" dastanının "Suqovuşan" boyu" adlı yazı üçün araşdırma apararkən Svetlana Xaçaturyanın "Madagizi ziyarət etmək və balıqçılıq təsərrüfatının taleyi ilə maraqlanmaq işgüzar səfərinizin missiyasını yerinə yetirməmək deməkdir" adlı məqaləsi ilə rastlaşdım. Məqalə ermənilərin Suqovuşanda başladıqları böyük gəlir mənbəyi olacaq bir prosesdən bəhs edirdi. Maraqlı, həm də onların suya düşən xəyallarını sübut etdiyi üçün yenidən həmin məqaləyə müraciət etdim. Məqalədə qeyd olunur: "Artsax qara kürü ixrac edən bir ölkəyə çevriləcək. İldə 15-20 ton qara kürü, 1200-1500 ton balıq istehsal ediləcəkdir... Ancaq Aprel müharibəsi başladı, bunun fonunda ehtiraslar tədricən azaldı: xarici investorların vəsaitlərinin küləyə atıldığını, proqramın uğursuz olduğunu və kürü istehsal olunmayacağını artıq bir pıçıltı ilə danışırdılar. Biz bu yaxınlarda Madagiz balıqçılıq təsərrüfatının direktoru vəzifəsini icra edən Arena Ulubabyanla görüşdük. O, özünü təqdim edəndə dedi: əvvəlcə gəlin balıqları görək. İnzibati binanın yanında yerləşən balıqçılıq, ümumi bir dam altında çoxsaylı hovuz kompleksidir. Onun sözlərinə görə, ümumilikdə 306 hovuz var və hamısında balıq yaşayır. Ulubabyan bunların "Sibir nərəkəsi" və "Rus nərəsi" növlərinin balıqları olduğunu söylədi. Bunlar qara kürü üçün ən yaxşı balıq növləridir. Balığın Madagizə necə gətirildiyini və onların "səyahət" marşrutunun belə olduğunu izah etdi: mayalanmış yumurtalar əvvəlcə Almaniyadan və Rusiyadan Ermənistana - suları balıq yetişdirmək üçün yararlı olan Ararat bölgəsinə, oradan da Artsax və xüsusi olaraq - Madagizə gətirilir. Zavodun Artsaxın başqa bir qəsəbəsində deyil, nə üçün Madagizdə qurulduğunu soruşduqda, A. Ulubabyan cavab verdi ki, balıq yetişdirmək və qara kürü istehsalı üçün ən uyğun şərtlər məhz Madagizdədir. Kürünün keyfiyyətinə əsasən iki amil təsir edir: oksigenlə zəngin təmiz su və Tərtər çayının ən böyük qolunun suyuna tam uyğun gələn müvafiq temperatur. İl ərzində sabit temperaturu 6-8 dərəcə olan təmiz, oksigenlə zəngin sular keyfiyyətli kürü əldə etmək üçün faydalıdır Madagiz balıqçılıq təsərrüfatının direktoru vəzifəsini icra edən şəxs də əsas investorların xaricdən gələn iş adamları olduğunu söylədi. Bu yaxınlarda Artsax məhsullarının dadına baxan və keyfiyyəti və ləzzətindən məmnun qalan qara kürü satışında dünyaca məşhur mütəxəssislər gəldi, nəticədə kürünün ixracı ilə bağlı razılaşmalar əldə edildi. Ulubabyanın sözlərinə görə, məhsulların ilk partiyası 2018-ci ilin sonunda istehsal olunacaq və müəssisə 2022-23-cü illərdə tam gücü ilə fəaliyyətə başlayacaq və dünya bazarlarında "Artsaxda istehsal olunur" etiketli qara kürü və balıq görünəcək".

2022-2023-cü ilə dünya bazarına çıxarmaq istədikləri qara kürünün istehsalına zəngin təbiəti ilə tam cavab verən Madagiz adlandırdıqları ərazimizdə 2020-ci ilin 3 oktyabrında Azərbaycan bayrağı yenidən dalğalandı və ərazi tarixi adına qovuşdu-Suqovuşana. Ağılsız ermənilərin xam xəyalları isə elə Suqovuşanın çox bəyənib, təqdir etdikləri sularına qovuşdu. Onlara üz tutub demək istəyirəm ki, əmin olsunlar, onlar bu qara kürüdən yeyə biləcəklər. Bu məhsulu planlaşdırdıqları illərdə-2022-2023-cü illərdə "Qarabağda istehsal olunur" etiketi ilə dünya bazarından əldə edə bilərlər.

## Suqovuşan Qarabağın açarıdır

Azərbaycanın "Brest" qalası hesab edilən Suqovuşanın işğaldan azad olunması ilə Murov, Kəlbəcər, Tərtər yolu tamamilə kəsilir və Ağdamın azadlığına yol açılırdı. Murov dağ silsiləsinin cənub yamacı ilə Sərsəng gölünə yol buradan keçir. Öz taleyini Prezidentinə, Ali Baş Komandana ümid edən Azərbaycan xalqı dövlət rəhbərinin düşünülmüş və ardıcıl şəkildə həyata keçirdiyi tədbirlər nəticəsində, Milli Ordumuzun qəhrəman əsgər və zabitlərinin səyi ilə Suqovuşandan başlanan qələbə ilə böyük Zəfərə doğru irəlilədi. Suqovuşan deyildiyi kimi, Qarabağın açarı oldu.

Tarixən Qarabağ, onun ətraf rayonları üçün qurulmuş planlar Vətən müharibəsində alt-üst oldu, həqiqət öz yerini tapdı. Ölkəmizin rəhbəri Suqovuşandan xalqa təbrikində də qeyd edirdi ki, Suqovuşan qədim Azərbaycanın tarixi yeridir. Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb. Ancaq 1923-cü ildə doğma Qarabağ diyarımızda qanunsuz və heç bir əsası olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Qarabağın gözəl, səfalı yerləri qondarma quruma daxil edilmişdi, o cümlədən Şuşa şəhəri və Suqovuşan qəsəbəsi. Bu, xalqımıza qarşı növbəti ədalətsizlik idi, növbəti düşmənçilik idi. Çünki Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan xalqı Qarabağda əsrlər boyu yaşayıb. Sadəcə olaraq, siyasi məqsədlər naminə uzun illər, sovet dövründə burada qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti fəaliyyət göstərirdi. Bildiyiniz kimi, sonra ermənilər xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar və 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu. Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıyıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün Silahlı Qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq.

Bəli, şükürlər olsun ki, biz yurd yerlərimizə qayıda bildik. Suqovuşanın gur, saf, təmiz suları indi bu torpaqlarımızdan erməni çirkabını yuyub aparmaqdadır.

## Bu Suqovuşan

Martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin istifadəyə verilməsi, Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin və məscidin təməlinin qoyulması 30 il öncə miskinləşən və bir qərinəyə yaxın həmin kədərli görkəmlə yaşayan Suqovuşanın bu günüdür, bugünkü uğurudur. Ona dövlət-xalq birliyinin töhfəsidir. Yenidən qurulub-yaradılması, ona yeni həyat verilməsidir. Prezident cənab İlham Əliyevin dediyi kimi: "... Abadlıq və quruculuq işləri, o cümlədən Suqovuşan qəsəbəsində də geniş vüsət alıbdır. Bu gün burada bir neçə tədbirdə iştirak etmişəm, o cümlədən yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması. Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq".

O Suqovuşanla bu Suqovuşan arasındakı müqayisə ümumilikdə Qarabağ zəfərinin fonunda qürur doğurur. Bəli, qürur duyuruq. Torpaq sevgimizlə, qalib ölkənin vətəndaşı olmağımızla, Qarabağı bizə qaytaran dövlət başçımızla, Milli Ordumuzla, dövlət-xalq birliyi, həmrəyliyimiz ilə... Ən böyük qürur isə qarşıdadır-yurddaşlarının Qarabağa dönəcəyi gün.

***Mətanət Məmmədova***

# "Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda elmi-praktiki konfrans keçirilib

**Martın 30-da Qubada Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda elmi-praktiki konfrans keçirilib.**




31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı qonaqlar ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Ziyarətçilər Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

"Quba Palace Hotel"ində YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevin moderatorluğu ilə keçirilən tədbirin əvvəlində soyqırımı qurbanlarının, həmçinin torpaqlarımızın azadlığı və suverenliyi uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək bildirib ki, Azərbaycan xalqı son iki əsrdə erməni vandalizmi və terrorizminə məruz qalmışdır. İstər XX, istərsə də XXI yüzillikdə təcavüzkar erməni millətçiləri xalqımıza qarşı milli-etnik zəmində kütləvi qətliamlar törətmiş, soyqırımı aktları həyata keçirmiş, bəşəriyyət əleyhinə qəddar və amansız cinayətlərə imza atmışlar. 31 Mart soyqırımı da tarixin və xalqımızın hafizəsinə əbədi həkk olunmuş qan yaddaşıdır.





Tahir Budaqov qeyd edib ki, ermənilərin 1918-ci ilin martında havadarlarının köməyi ilə azərbaycanlılara qarşı törətdikləri soyqırımının miqyası böyükdür. Sıralarında çoxlu sayda erməni millətçilərinin cəmləşdiyi Bakı Kommunası "əks-inqilabçılara qarşı mübarizə" şüarı altında 1918-ci ilin martında Bakı quberniyasında azərbaycanlıların tamamilə məhv edilməsi kimi cinayətkar planın icrasını həyata keçirməyə cəhd etdi. Erməni quldur dəstələri təkcə Bakıda deyil, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər yerlərdə dinc əhaliyə qarşı soyqırımı törətdilər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı oldu.





Azərbaycanlıların ermənilər tərəfindən qətlə yetirilməsi, soyqırımına məruz qalması sonrakı dövrlərdə də davam edib. 1920-ci ilin may ayından 1921-ci ilin noyabrına qədər Azərbaycanda ermənilər tərəfindən 48 min nəfər qətlə yetirilib. 1930-cu illərə də diqqət yetirəndə məlum olur ki, bolşevik hökuməti tərəfindən müxtəlif repressiyalar adı altında xalqımız soyqırımına məruz qalıb. 1988-ci ildən isə mənfur qonşularımız yenidən fəallaşmağa başlayıblar. Ermənistan öz havadarlarının dəstəyi ilə Azərbaycana qarşı ərazi iddiaları irəli sürüb, işğalçılıq siyasətinə start verib. Bundan başqa, ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində XX əsrin ən dəhşətli soyqırımlarından birini törədiblər. Ermənistan 30 ilə yaxın müddət ərzində Azərbaycanın torpaqlarının 20 faizini işğal altında saxlamaqla yanaşı, mənəvi, ekoloji terror, müharibə cinayətləri törədib, dinc - sivil insanları qətlə yetirib. Bu faktlar təcavüzkar erməni vandalizminin siması və daha bir nümunəsi kimi tarixə düşüb.

YAP Sədrinin müavini deyib: "Azərbaycan xalqı və dövləti tarixi yaddaşımızın qorunmasına hər zaman böyük həssaslıqla və xüsusi diqqətlə yanaşır. Eləcə də erməni vandalizmi və terrorizmi unudulmur, müvafiq siyasi-hüquqi qiymət verilir, reallıqlar dünya ictimaiyyətinə çatdırılır, erməni yalanları ifşa olunur, dezinformasiya kampaniyaları iflasa uğradılır. Xatırlatmaq vacibdir ki, 31 Mart soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət xalqımızın ümummilli lideri, dahi şəxsiyyət - müdrik dövlət xadimi Heydər Əliyev tərəfindən verilib. Ümummilli Lider 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" müvafiq Fərman imzalayıb, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bununla yanaşı, Prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncam imzalayıb. Sərəncamdan irəli gələrək genişmiqyaslı tədbirlər keçirilib.

Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu istiqamətdə çox vacib işlər görür - mühüm layihələr reallaşdırır. Fondun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılması isə böyük əhəmiyyət daşıyır. Fond tərəfindən keçmiş münaqişə ilə əlaqədar müasir və təkmil internet resurslarının yaradılması, müxtəlif dillərdə "Qarabağ həqiqətləri" adlı bukletlərin hazırlanması, geniş auditoriyaya paylanması və digər addımlar dünya ictimaiyyətinə doğru - obyektiv məlumatın çatdırılmasına imkan verib. Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə "Xocalıya ədalət!" kampaniyasının uğurla davam etdirilməsi isə xüsusi qeyd olunmalıdır. Bütün bunların nəticəsi kimi, ayrı-ayrı ölkələrin qanunverici̇lik orqanları ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi cinayət əməllərini qətiyyətlə pisləyən qərar və qətnamələr qəbul ediblər. Beləliklə, erməni vandalizminin real faktlar əsasında dünyada ifşa olunması, beynəlxalq informasiya platformasında Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, müharibəsonrası çoxvektorlu diplomatik fəaliyyətə informasiya dəstəyinin verilməsi kimi istiqamətlərdə həyata keçirilən tədbirlər strateji xarakter daşıyır. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyasının tərkib hissəsi kimi qlobal ictimai rəyin daim Azərbaycanın lehinə olması hədəfinə çatmağa real imkanlar - əlverişli zəmin və şərait yaradır. Bütövlükdə, bu gün dünya özünü "məzlum xalq" kimi təqdim edərək beynəlxalq ictimai rəyi yanıltmağa çalışan ermənilərin əsl üzünü - barbar və vandal simasını görür, faktlar və həqiqətlər öz sözünü deyir.

*Ardı Səh. 5*

Əvvəli Səh. 4

Beynəlxalq ictimaiyyət bir daha agah olur ki, ermənilərin xalqımıza qarşı törətdiyi vandalizm aktları həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş müxtəlif konvensiyalara əsasən, həm də mənəvi-əxlaqi kodekslərə görə, insanlığa qarşı - bəşəriyyət əleyhinə cinayətdir".

44 günlük Vətən müharibəsində Azərbaycanın işğalçı və terrorçuları döyüş meydanında layiqincə cəzalandırdığını söyləyən Tahir Budaqov deyib ki, yaxın tarixdə törədilmiş qanlı cinayətlərin qurbanlarının qanı yerdə, qisas isə qiyamətə qalmadı. "Əminliklə söyləmək olar ki, azərbaycanlılara qarşı erməni vandalizminin simasını təşkil edən digər qatillər və canilər də qanun qarşısında cavab verəcək, layiqli cəzalarını alacaqlar. Azərbaycan xalqının gücü-qüdrəti, beynəlxalq imici və nüfuzu, xalqımızın mübarizə əzmi və sarsılmaz həmrəyliyi buna imkan verir!", - deyə o əlavə edib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev "Soyqırımı Memorial Kompleksi: azərbaycanlılara qarşı törədilmiş soyqırımların qan yaddaşı kimi" adlı məruzəsində bildirib ki, 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar olunması ermənilərin xalqımıza qarşı həyata keçirdiyi mart soyqırımının dəhşətlərini bir daha ortaya çıxarıb. Əldə olunan maddi sübutlar və sənədlərlə 1918-ci ilin mart-aprel aylarında və sonrakı

# "Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda elmi-praktiki konfrans keçirilib



mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

"Bu dəhşətli hadisə miqyasına və amansızlığına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Həmin günlərdə azğınlaşan erməni qüvvələri Bakı, Quba, Şamaxı, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar, etnik təmizləmələr həyata keçirib. Dinc sakinlər etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. 50 mindən çox sakin erməni faşizminin qurbanı olub", - deyə Elçin Məmmədov söyləyib.

Baş prokurorun 1-ci müavini qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən ermənilərin törətdikləri bu ağır cinayətlərin araşdırılması üçün fövqəladə istintaq komissiyası yaradılıb. Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görülüb. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb. Baş verənlərin sona qədər tədqiq edilməsi və ona siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yaranıb. Uzun illər gizli saxlanılan və üzərinə qadağa qoyulmuş həqiqətlər











dövrlərdə erməni millətçilərinin törətdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğu sübuta yetirilib.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı müvafiq Sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu kompleksin açılışı olub. Soyqırımı Memorial Kompleksində yalnız Quba qəzasında deyil, Bakı quberniyasının Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımına dair məlumatların əks olunduğu tarixi sənədlər saxlanılır.

Azərbaycan Respublikasının Baş prokurorunun 1-ci müavini Elçin Məmmədov "Azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri: istintaq və nəticələri" mövzusunda məruzəsində qeyd edib ki, soyqırımı ilə bağlı ötən illər ərzində aparılan araşdırmalar nəticəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Bu müddət ərzində Qubada kütləvi məzarlıq aşkar edilib. Bu faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edib.

Elçin Məmmədov bildirib ki, Azərbaycan tarixinə bir sıra şanlı səhifələrlə yanaşı soyqırımı və faciələr də yazılıb. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel ayında Bakı sovetinin

bir-bir açılmağa başlamışdır. Məlum hadisələrdən yalnız 80 il sonra - 1998-ci ildə mart ayının 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan olunub.

Ardı Səh. 6

# ”Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda elmi-praktiki konfrans keçirilib



Əvvəli Səh. 5

Elçin Məmmədov bildirib ki, 1918-ci ilin mart-aprel aylarında Quba qəzasında çoxlu sayda insanların işgəncələr verilməklə qətlə yetirildiyi kütləvi məzarlıqla bağlı daha ətraflı istintaqın aparılması məqsədilə, habelə Neftçala rayonunun Dirovdağ və Qubanın İspik kəndi yaxınlığında meşəlik ərazidə aşkar edilən insanların dəhşətli şəkildə həlak olması əlamətləri üzrə 2010-cu il 26 may tarixində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Həmin dövrdə baş prokurorun qərarı və peşəkar müstəntiqlərin iştirakı ilə istintaq qrupu yaradılıb. İş üzrə çoxsaylı şəxslər, hadisələrin bilavasitə şahidi olan və yaxud zərərçəkmiş şəxslərin yaxın qohumları müəyyən edilərək dindirilib. Azərbaycan Respublikası Tarix, Arxeologiya və Etnoqrafiya institutlarına, Milli Arxiv İdarəsinə, Respublika Dövlət Arxivinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, ictimai və dini təşkilatlara sorğular göndərilib, kompleks məhkəmə tibbi, kriminalistika və sair ekspertizalar təyin edilərək rəylər alınıb.



”Erməni millətçilərinin silahlı basqınlarının izlərini özündə saxlayan maddi sübutlar aşkar edilərək müayinə olunub. İstintaqın gedişində toplanan sübutların məcmusu ilə, o cümlədən 1918-1920-ci illər mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin ermənilərin törətdiyi qırğınların tədqiqi məqsədilə təşkil etdiyi fövqəladə istintaq komissiyasının materiallarının, həmin hadisələrin canlı şahidi olmuş şəxslərin ifadələri, arxiv idarələrindən əldə olunan sənədlərin təhlili və sair sübut növləri ilə 1918-ci ildə Bakı şəhəri, Quba, Şamaxı qəzalarında və digər bölgələrdə azərbaycanlılara qarşı törədilən kütləvi qırğınların, onların əmlaklarının talan edilməsinin Şaumyan, Bakı Sovetinin hərbi inqilabi komitəsinə rəhbərlik edən Karqanov, Bakı Xalq Komissarları Sovetinin təşkil etdiyi ordu briqadasının komandirləri olan Amazaps, Svartiyan, Zurabyan, Arutinyan, korpus komandiri polkovnik Kazaryan, Avitisyan, Lalayan və digər erməni millətçiləri tərəfindən milli mənsubiyyət faktoruna əsasən həyata keçirilmiş soyqırımı cinayəti olması sübuta yetirilib”, - deyə E.Məmmədov söyləyib.

Baş prokurorun 1-ci müavini prokurorluq orqanları tərəfindən, eləcə də digər dövlət qurumları, vətəndaş cəmiyyəti institutları ilə əlaqəli şəkildə erməni millətçi cinayətkar qruplar tərəfindən xalqımızın başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq hüquqi qiymətin alması üçün zəruri işlərin bundan sonra da davam etdiriləcəyini deyib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov ”Erməni millətçiliyi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti” adlı məruzəsində qeyd edib ki, Ermənistan işğal altında olmuş ərazilərdə kütləvi məzarlıqların yerini bildirən məlumatları Azərbaycana verməkdən boyun qaçırır. Erməni millətçilərinin Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasəti sovet hakimiyyəti dövründə də davam etdirilib. Sovet İttifaqı dağıldıqdan sonra da, Azərbaycan torpaqlarının işğal edilməsi həmin ərazilərdə də yerli əhalinin etnik təmizlənməsi ilə nəticələnən kütləvi qırğınlarla müşayiət edilib.



”Erməni millətçiləri tərəfindən fərqli bölgələrdə insanlıq əleyhinə cinayətlər törədilib. Onların sırasında Xocalı, Başlıbel, Ballıqaya, Ağdaban, Meşəli, Cəmilli, Quşçular, Malıbəyli faciələrini xüsusilə qeyd etmək olar. Bu hadisələrin hər biri dinc əhalinin öldürülməsinə, terrora hesablanıb, qırğınların ardıcıl və sistematik həyata keçirilməsi isə onların Ermənistan tərəfindən dövlət səviyyəsində planlaşdırıldığını göstərir. Birinci Qarabağ müharibəsindən bu günədək 4000-dək soydaşımız barədə hələ də məlumat yoxdur. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Kəlbəcərin Başlıbel, Şuşanın Daşaltı, Xocavəndin Edilli kəndləri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu məzarlıqlar, meyit qalıqları Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən əsir və girov götürülərək, ağır işgəncələr verilərək qətlə yetirilən Azərbaycan vətəndaşlarına aiddir”, - deyə nazir müavini söyləyib.



Elnur Məmmədov vurğulayıb ki, bu günlərdə Xocalının Fərrux yüksəkliyində də insan sümükləri aşkarlanıb və həmin qalıqların da tədqiqatı həyata keçiriləcək.

Türkiyənin Azərbaycandakı səfirinin müavini Tuğba Sarıyönlü ”Ortaq kədər və tarixi qardaşlıq” mövzusundakı məruzəsində iki qardaş ölkənin ortaq acılarının xalqlarımızı daha sıx birləşdirdiyini, ədalətsizliyə qarşı birlikdə mübarizə aparmalı olduğumuzu bildirib.

Tuğba Sarıyönlü qeyd edib ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanmış Şuşa Bəyannaməsi olduqca mühüm sənəddir. Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyəti var. Bu bəyannamə vacib müttəfiqlik anlaşmasıdır. Bu sənədin imzalanmasında məqsəd Azərbaycanla Türkiyə arasındakı münasibətləri daha da gücləndirməkdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ”Ermənistanın soyqırımı siyasətinin dini aspektləri” mövzusunda çıxışı zamanı bu kimi elmi konfransların tarix boyu xalqımıza qarşı törədilən qırğınlar haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

”Ermənilərin əsassız iddialarının ifşa edilməsində, onların Anadoluda, Azərbaycanda törətdikləri soyqırımları ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında istər Türkiyədə, istərsə də ölkəmizdə aparılan geniş ideoloji və təbliğati iş öz müsbət bəhrəsini verməkdədir. Dünya ictimaiyyəti artıq ermənilərin iç üzünü tanıyır. Hamı görür ki, ermənilərin soyqırımı iddiaları siyasi alətdən başqa bir şey deyil”, - deyə Gündüz İsmayılov söyləyib.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli ”Erməni vəhşiliyi tarixin yaddaşında: dağıdılmış və yandırılmış tarixi abidələr” mövzusunda çıxış edib. ”Təəssüflə qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilib. Bu baxımdan Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır”, - deyə Azad Cəfərli söyləyib.

Dövlət Xidmətinin rəisi bildirib ki, erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri, yeni məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər xalqımıza məxsus məscidlərin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Xocavənd rayonunda yerləşən Azıx mağarası, Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin yaxınlığında təcavüzkar Ermənistan rəhbərliyinin təşkilatçılığı ilə xarici ölkələrdən olan mütəxəssislərin də daxil edildiyi saxta arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri təşkil olunmuşdur. Eyni zamanda, Ermənistan tərəfi daha bir təxribata əl ataraq, Şuşa şəhərindəki Yuxarı Gövhərağa məscidində ”bərpa işləri” adı altında abidənin tarixini saxtalaşdırmaqla məşğul olub, xalqımıza məxsus bu tarixi tikilinin fars məscidi olmasını iddia edib.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov bildirib ki, 1918-ci ildə Bakıda, Şamaxı, Quba qəzalarında, Qərbi Azərbaycan və Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı erməni hərbi birləşmələri tərəfindən soyqırımı həyata keçirilib. Minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib. Bu, ermənilərin ”böyük Ermənistan” planını həyata keçirmək üçün türk-müsəlman əhalisinə qarşı məqsədli soyqırımı idi.



Professor Anar İsgəndərov məruzəsində erməni cəmiyyətində əsrlərdən bəri kök salmış türk düşmənçiliyi məsələsinin tarixi köklərinə də diqqət çəkib. Fövqəladə Təhqiqat Komissiyasının nadir sənədlərinə istinad edərək, müqayisəli təhlil əsasında 1905-1906-cı illər, 1918-ci ilin mart soyqırımlarının səbəb və nəticələri haqqında ətraflı məlumat verib.

Yekunda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfransda maraqlı məruzələrin, faktların təqdim olunduğu bildirib. ”Tarixdən ibrət dərsi götürülməli və nəticə çıxarılmalıdır”, - deyən Tahir Budaqovun sözlərinə görə, gələcəkdə belə faciələrin bir daha yaşanmaması üçün keçmişimizi unutmamalı və daha güclü olmalıyıq. Bunun üçün isə Heydər Əliyev yolunun müzəffər davamçısı Prezident İlham Əliyevin ətrafında hər zaman sıx birləşməliyik.

Tədbirin sonunda elmi-praktiki konfransın iştirakçıları adından bəyanat qəbul olunub.



# BƏYANAT

**Ermənilərin öz havadarlarına arxalanaraq son 200 ildə soydaşlarımıza qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi etnik təmizləmə, deportasiya və soyqırımlar barədə reallıqlar, təkzibedilməz faktlar Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi siyasət nəticəsində daim beynəlxalq ictimaiyyətə çatdırılır.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində misilsiz xidmətləri də aparıcı ölkələrdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatlarda erməni uydurmalarını ifşa edir.

Məhz bunun nəticəsidir ki, tarixi yalanlar üzərində qurulmuş məkrli erməni siyasəti, erməni mifi darmadağın edilib, ermənilərin Azərbaycan torpaqlarına XIX əsrin əvvəllərində məqsədli şəkildə köçürülməsi, zaman-zaman törədilmiş saysız-hesabsız cinayətlər, xüsusən 1905-1906, 1918, 1948-1953, 1988-1993-cü illərdə xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, işğal, terror, deportasiya, soyqırımı aktları barədə əsl həqiqətlər dünya ictimaiyyətinə bəlli olub.



Aparılan araşdırmalar, təkzibolunmaz arxiv sənədləri, soyqırımları təsdiqləyən çoxsaylı dəlil-sübutlar, respublikamızın müxtəlif bölgələrində aşkar olunan kütləvi məzarlıqlar erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının nə qədər geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edir. Beynəlxalq ictimaiyyətə o da yaxşı məlumdur ki, insanlıq əleyhinə xüsusi qəddarlıqla törədilmiş bu cinayətlərin qurbanları azərbaycanlılarla yanaşı, ölkə ərazisində yaşayan digər xalqların nümayəndələri də olublar.

Ermənistanın uzun illər boyu həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların tarixən yaşadıqları yer adlarının erməniləşdirilməsi, şəhər və kəndlərin, tarixi-mədəni abidələrin, məscidlərin, hətta qəbiristanlıqların dağıdılması faktları da dünyaya yaxşı bəllidir. 44 günlük Vətən müharibəsi zamanı bir neçə dəfə bölgələrə səfər edən xarici ölkələrin diplomatik korpusunun nümayəndələri də erməni vəhşiliyinin canlı şahidi oldular. Lakin əksər beynəlxalq qurumlar, aparıcı ölkələr bu cinayətə adekvat reaksiya vermək əvəzinə, Azərbaycana təzyiq göstərməyə, müharibənin əsl mahiyyətini təhrif etməyə, Ermənistanı düçar olduğu məğlubiyyətdən qurtarmağa çalışdılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, 200 il davam edən işğalçılıq siyasətinə son qoyaraq bizə qalib dövlət, qalib xalq adını və tarixi Zəfəri qazandırdı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də beynəlxalq təşkilatların uzun illər kağız üzərində qalmış qərar və qətnamələrinin icrasına nail oldu, Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı. Xalqımızın müqəddəs amalının gerçəkləşdirilməsində qardaş Türkiyə, Pakistan və bir sıra dost ölkələrin mənəvi dəstəyi qan yaddaşımızdan heç vaxt silinməyəcək.

Xalqımıza qarşı aparılan soyqırımı siyasətinə uzun müddət siyasi-hüquqi qiymət verilmədiyi üçün tarixi faktlar həmişə ermənilər tərəfindən təhrif olunub. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə ilk dəfə siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib.

Cəzasızlıq yeni cinayətlərə yol açır. Erməni daşnaklar tərəfindən törədilmiş soyqırımı aktları təkcə xalqımıza qarşı deyil, həm də insanlıq əleyhinə həyata keçirilmiş ümumbəşəri cinayətlər olduğu üçün beynəlxalq hüquqa əsaslanan adekvat yanaşma tələb edir. İnanırıq ki, cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən çoxşaxəli tədbirlər bundan sonra da öz bəhrəsini verəcək və cinayətkarlar layiqli cəzalarını alacaqlar.

Tam əminik ki, Azərbaycan bundan sonra da müasir çağırışlara, milli maraqlara və ictimai-siyasi münasibətlərin mahiyyətinə, xarakterinə tam adekvat olan strateji yola sadiq qalaraq tarixin bütün sınaqlarından həmişə üzüağ çıxacaq, davamlı inkişaf yolu ilə qətiyyətlə irəliləyəcəkdir. Hakim Yeni Azərbaycan Partiyasının üzvləri də bu istiqamətdə üzərilərinə düşən vəzifələri məsuliyyətlə və şərəflə yerinə yetirəcək, milli tərəqqiyə mühüm töhfələr verəcəklər.

**Bəyanat Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən 31 mart Azərbaycanlıların soyqırımına həsr olunmuş "Soyqırım - ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda konfransda qəbul edilmişdir.**

Quba şəhəri, 30 mart 2022-ci il




## Tahir Budaqov:
## Erməni cinayətlərinin beynəlxalq aləmdə ifşa olunması dövlətimizin siyasətinin prioritet istiqamətlərindəndir

**31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbirlər hazırda respublikanın bütün bölgələrində keçirilir. Yeni Azərbaycan Partiyası tərəfindən "Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda elmi-praktiki konfransın Qubada keçirilməsi isə təsadüfi deyil. Çünki erməni cinayətlərinin qurbanlarının xatirəsinə ucaldılmış Soyqırımı Memorial Kompleksi Qubada yaradılıb. Burada kütləvi məzarlıq aşkar olunduqdan sonra bu möhtəşəm kompleks yaradılıb. Bu kompleksin yaradılmasının keçmişi yaddan çıxarmamaq, gələcəkdə daha güclü olmağımız üçün mənəvi əhəmiyyəti var.**

Bölgə müxbiri xəbər verir ki, bu fikirləri Qubada jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov söyləyib.

YAP Sədrinin müavini bildirib ki, 200 ildən artıq müddətdə ermənilərin soyqırımı siyasətini həyata keçirməsi nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilib. Bu qətliamlara vaxtında tarixi-siyasi qiymətin verilməməsi ermənilərin bu cinayətləri davam etdirmələrinə şərait yaradıb. Yalnız ümummilli liderimiz Heydər Əliyev tərəfindən soyqırımı cinayətlərinə hüquqi-siyasi qiymətin verilməsi, eləcə də dövlətimizin həyata keçirdiyi siyasət nəticəsində dünya baş verən hadisələrə düzgün qiymət verməyə başladı. Təbii ki, bu proseslərdə Heydər Əliyev yolunun müzəffər davamçısı, Prezident İlham Əliyevin siyasətini xüsusi qeyd etmək lazımdır. Elə bir beynəlxalq tədbir yoxdur ki, Prezident İlham Əliyev bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmasın.

Tahir Budaqov, eyni zamanda, qeyd edib ki, Heydər Əliyev Fondunun xətti ilə bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. İstər respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, istərsə də Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən tədbirlər nəticəsində dünyanın bir sıra ölkələri Xocalı soyqırımını tanıyıb. Erməni vandalizminin təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı cinayət olduğu gündəmdə saxlanılır.

Soyqırımı hadisələrinin qan yaddaşımıza həkk olunduğunu deyən Tahir Budaqovun sözlərinə görə, erməni cinayətlərinin daim ifşa edilməsi, bu cinayətlərə beynəlxalq aləm tərəfindən qiymət verilməsi dövlətimizin siyasətinin prioritet istiqamətlərindən biridir. "Biz qürurla deyə bilərik ki, erməni vandalizminin qurbanlarının, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycanın rəşadətli Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün təmin edilməsi, tarixi ədalətin bərpa olunması istiqamətində möhtəşəm Zəfər yolu keçdi. Hazırda bu Zəfərin nəticələrinin möhkəmləndirilməsi, Azərbaycanın yaratdığı yeni reallıqların beynəlxalq aləmdə qəbul olunması yönündə ciddi nəticələr var. Həmçinin Azərbaycan xalqı bu müharibədə öz böyüklüyünü bir daha nümayiş etdirdi. Ermənilərin xalqımıza qarşı kütləvi qırğınlarına, cinayətlərinə baxmayaraq, Ordumuz 44 günlük müharibədə dinc erməni əhalisini, mülki obyektləri hədəfə almadı, yalnız hərbi hədəfləri məhv etdi", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

T.Budaqovun sözlərinə görə, konfransın digər bir özəlliyi ondan ibarətdir ki, burada ölkəmizdə yaşayan müxtəlif etnik qrupların, ictimai birliklərin nümayəndələri də iştirak edirlər: "Ermənilər Azərbaycanda kütləvi qırğınlar törədərkən təkcə azərbaycanlıları deyil, digər xalqların nümayəndələrini də qətlə yetiriblər. Bu gün onların da xatirəsi anılır. Onu da bildirmək istəyirəm ki, 44 günlük Vətən müharibəsində ölkəmizdə yaşayan bütün xalqlar, etnik qruplar Prezident İlham Əliyevin ətrafında sıx birləşərək möhtəşəm Zəfərimizin qazanılmasına öz töhfələrini veriblər".

## Brüsseldə NATO XİN rəhbərlərinin iclası keçiriləcək



***Aprelin 6-7-də NATO-ya üzv ölkələrin xarici işlər nazirlərinin iclası keçiriləcək. AZƏRTAC Alyansın saytına istinadla xəbər verir ki, iclas NATO-nun Brüsseldəki baş qərargahında baş tutacaq.***

NATO-nun Baş katibi Yens Stoltenberqin rəhbərlik edəcəyi iki sessiyadan ibarət iclasın birinci hissəsinə Avstraliya, Finlandiya, Gürcüstan, Yaponiya, Koreya Respublikası, Yeni Zelandiya, İsveç və Ukraynanın xarici işlər nazirləri, habelə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi dəvət olunublar.




# "Qarabağ" dastanının "Fərrux" boyu

**2020-ci ilin payızının 44 günü xalqımızın şanlı tarixinə qızıl hərflərlə yazıldı. 30 il öncə dövlətimizin səriştəsiz rəhbərləri tərəfindən bir-birinin ardınca ermənilərə satılan Qarabağ torpaqları 44 gündə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz tərəfindən işğaldan azad edildi.**

Bu xalq 30 il ərzində nələr yaşadı, hansı çətinliklərlə üzləşdi, bunun özü bir dastandır. Ata-baba yurdundan zorla çıxarılan, min bir zəhmətlə ərsəyə gətirdikləri doğma ev-eşiklərini, barlı-bəhrəli həyət-bacalarını, qəbiristanlıqlarda uyuyan əzizlərini qoyub yurdundan uzaqlaşdırılan, ölkəmizin bölgələrində yerləşdirən, o zamankı Azərbaycanın sosial-iqtisadi çətinlikləri məngənəsində sıxılan insanların həyatına bizlər şahid olduğumuz üçün deyərdim ki, bəli, bu, həm də bir mücadilə idi. Soydaşlarımızın acı, keşməkeşli həyatla mücadiləsi idi.

44 günlük Vətən müharibəsinədək minlərlə qarabağlı torpaq təşnəsi ilə yanıb kül oldu, öz torpağında deyil, başqa yerlərdə dəfn olundu. Yurdunun ətri burnunda dünyasını dəyişdi. Xəyallarında, yuxularında hər gün evində, həyətində dolaşa-dolaşa bunun bir gün reallaşacağını arzu edərək gözlərini həyata yumdu. Minlərlə körpə doğuldu, yurdundan kənarda, böyüdü, 25-28 yaşına çatdı, Şuşalı, Ağdamlı, Laçınlı, Kəlbəcərli və Qarabağın digər yerlərindən idi, bu yurdları hələ də görə bilməmişdi. Onun ata yurdu haqqında təəssüratları yalnız ata-analarının anlatdıqları qədər idi...

44 günün dastanı

Sonrakı illərdə ölkəmizdə qaçqın-köçkünlərimiz üçün hərtərəfli şərait yaradıldı. Onlar üçün mənzillər tikildi. Ölkəmizin Prezidentinin göstərişi ilə çadır şəhərcikləri ləğv edildi, qaçqınlar mənzillərlə təmin olundular. Sosial-rifah halları yaxşılaşdırıldı. Ölkədə bütün diqqət qaçqın-köçkünlərin problemsiz həyatına yönəldildi.

Torpaqlarımızın isə bir gün işğaldan azad edilməsi üçün lazımi işlər görülməyə başlandı. Dövlətimiz sülh yolu ilə torpaqları geri almağa çalışdı. 1990-cı illərdə Birinci Qarabağ müharibəsində olduğu kimi qan tökülməsini, ana-ataların şəhid qarşılamasını istəmədi. Haqq səsini bütün dünyaya çatdırdı. Beynəlxalq təşkilatlara üz tutdu, Qarabağa bir nəzər salmalarını, haqqın kimin tərəfində olduğunu araşdırmalarını istədi. Lakin heç bir nəticə əldə olunmadı. Bütün dünya bizim haqq səsimizə qarşı kar qaldı. Belə olanda isə müharibədən başqa heç bir yolumuz olmadı. Çünki ölkəmizin Prezidenti hər zaman çıxışlarında Qarabağın danışıqlar, sülh yolu ilə alınmayacağı təqdirdə müharibə yolu ilə alınacağını, işğal altında qalmayacağını vurğulayırdı.

2020-ci ilin sentyabrında yeni ərazilər işğal etmək niyyətində olan, bunun üçün sərhədlərimizdə münaqişələr törədən erməniləri artıq yerlərində oturtmağın vaxtı çatmışdı. Beləliklə, İkinci Qarabağ müharibəsi başlandı. Üstünlüyün 90-cı illərdəki kimi öz tərəfində olacağını zənn edən ermənilər 44 günün hər anı böyük itkilərlə geri çəkildilər. Milli Ordumuz düşmənin başına od ələdi. Qarabağda dastan yazdı. Bir-birinin ardınca Suqovuşan, Füzuli, Xudafərinimiz, Zəngilan, Qubadlı, Şuşamız, Ağdam, Kəlbəcər, Laçınımız azad edildikcə bu dastanın boyları yazıldı. Hər boya da qəhrəmanlarımız şücaətlərini qanları ilə yazdılar.

Qarabağ dastan oldu. Yüzlərlə şəhid verdik, yüzlərlə qazilərimiz oldu. Lakin dövlət-xalq birliyi, həmrəyliyimiz bütün dünyaya nümunə oldu. Biz 30 il əsarətdə olan torpaqlarımıza qovuşduq. Düşməni qovduq yurdumuzdan. Qarabağ azad nəfəs almağa başladı. Axan şəhid qanı bu torpaqlara hopduqca 30 ilin həsrətli, hicranlı, ələmli-qəmli torpağı onu su kimi ciyərinə çəkib cana gəldi. Biz övlad itirdik, lakin torpağımızı-namusumuzu xilas etdik.

## Fərrux qəhrəmanlıq dastanının növbəti boyudur

Nə vaxtsa kimlərinsə maraqları ucbatından yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazi vahidi ilə bağlı statusu ölkəmizin Prezidenti elə müharibə zamanı ləğv etdi. Beləliklə Qarabağ bütövləşdi, ermənilərin qondarma xülyaları da bununla məhv edildi. Qarabağ qədimdən Azərbaycanın tərkibində necə idisə, eləcə də öz haqqına yenidən nail oldu. Ermənilər bizim torpaqlarda digər millətlər necə yaşayırlarsa, eləcə yaşaya bilərdilər. Lakin görünür düşmən üçün faydası yoxdur. O elə düşmənliyində də qalır. Həm də ki, düşmən sözü ilə erməni sözü arasında da fərq inanılmaz dərəcədədir. Düşmən hər kəs ola bilər, müxtəlif səbəblərdən. Lakin hər düşmən də erməni qədər xislətsiz ola bilməz axı. Bunlara yazıq gəlindikcə yeni vaxt əldə edib təxribat hazırlayırlar. Güzəşt edildikcə növbəti planlar hazırlayırlar. Xocalının Fərrux kəndində olduğu kimi. Burada yaşamaqlarına icazə verildiyi halda səngər qazmağa başladılar yeni planları üçün. Ta bilmədilər ki, Milli Ordumuzun ayıq-sayıq əsgərləri onların hər hərəkətini nəzarətdə saxlayır. Nə bu ordu 90-cı illərin zəif, silahsız ordusudu, nə də dövran həmin dövran deyil. Biz yenicə zəfər qazanmış xalqıq. Bu zəfəri də göz bəbəyimiz kimi qoruyub saxlayacağıq. Torpaqlarımızı qorumaq, ona xor baxan gözləri kor etmək isə ən başlıca vəzifəmizdir. Beləliklə ermənilərin növbəti təxribatı yenə də öz başlarında çatladı, Fərruxda isə Azərbaycan bayrağı dalğalandı. Bu bayraq öz dalğalarında ərazi bütövlüyümüzün bərpasını, separatçı qüvvələrin ona əl uzada bilməyəcəyini diqtə edir. Onu da diqtə edir ki, Qarabağ Azərbaycandır, Fərrux Qarabağdır!

## "Madagiz" yox, Suqovuşan, "Vardenis" yox, Basarkeçər, "Şuşi" yox, Şuşa... və ya "Furux" yox, Fərrux

Ulu öndər Heydər Əliyev tarixçi alimlərə üz tutaraq deyirdi: "Bu yer-yurd adlarını sizin nəsil yazmasa, itib-batacaq və gələcək nəslə çatmayacaqdır. Bu yer-yurdların azərbaycanlılara məxsus olduğunu yazıb beynəlxalq aləmə yaymaq lazımdır".

Bəli, Qarabağda elə bir ərazi vahidi qalmayıb ki, ermənilər onun adını dəyişib özününküləşdirməsinlər. Lakin 44 günlük Vətən müharibəsi buna da son qoydu. Biz öz torpaqlarımızla-yurdlarımızla yanaşı, həm də onların adlarını işğaldan xilas etdik. Hər bir yurdumuzun qədim adı özünə qaytarıldı. Onlar öz adları ilə səsləndirilməyə başladı ki, bunun üçün də dövlətimizin başçısına minnətdarıq. Müharibə zamanı Prezidentimiz hər dəfə xalqa qələbə müjdəli müraciətlərində, digər çıxışlarında işğaldan azad edilən rayon, qəsəbə və kəndlərin adlarına da münasibət bildirir, onların qədim adlarının bərpa olunmasını tapşırırdı.

Ötən günlərdə Rusiya Federasiyası Müdafiə Nazirliyinin bəyanatında Fərrux kəndinin Furux kimi səsləndirilməsi də birmənalı qarşılanmadı. Çünki bu qurum böyük yanlışa yer verirdi. Kiçik bir bəyanatda həm Dağlıq Qarabağ Muxtar Vilayəti ifadəsi öz əksini tapırdı, həm də Azərbaycanın qədimdən qədim Fərrux kəndi Furux kimi ifadə olunurdu ki, bunlar bağışlanmaz hallardır. Azərbaycan dövlətinin hər iki məsələyə dərhal reaksiya verməklə Rusiya Federasiyası Müdafiə Nazirliyinə bəyanatında düzəliş etməsini anlatması təbiidir. Çünki bu və ya digər hərəkətlər həm 2020-ci ilin 10 noyabr Bəyannaməsinə, həm də 2022-ci ilin 22 fevralında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannaməyə zidd hərəkətlərdir.

Qaldı ki, sülhməramlı qüvvələrin Qarabağda fəaliyyətinə,düşünürəm ki, bu qüvvələrin fəaliyyəti nə qədər ki, düzgün qurulmayıb, erməni separatçıları yerlərində oturdulmur, hər an belə münaqişələr ortaya çıxa bilər və təbii ki, bütün bunların öhdəsindən Milli Ordumuz vaxtında və layiqincə gələcəkdir. Çünki müstəqil Azərbaycanın güclü ordusu minlərlə şəhidimizin yarımçıq ömürləri, yüzlərlə qazilərimizin sağlamlıqlarını itirmələri, bir qərinəyədək dövrdə qaçqın-köçkün həyatını yaşamağa məcbur olan yurd həsrətlilərinin duaları hesabına azad edilən yurd yerlərimizdə bir daha münaqişəyə, təxribata yol verilməsinə imkan verməyəcək.

"Qarabağ" dastanının "Fərrux" boyu qəhrəmanlıq tariximizin növbəti səhifəsidir. Gələcək nəsillər qarşısında üzümüzü ağ, başımızı uca edən səhifə. Fərrux qələbəmiz mübarək olsun!

***Mətanət MƏMMƏDOVA***

## "Paşinyan uğursuz diplomatik manevr edir"



**"Paşinyan bu günə qədər Təhlükəsizlik Şurasında Azərbaycanla sülh danışıqlarına başlanılması barədə fikirlər səsləndirib. Azərbaycan Prezidenti İlham Əliyev də Moskvada görüşdə bildirdi ki, "biz çox arzu edirik ki, Ermənistan tərəfi götürdüyü öhdəlikləri yerinə yetirsin". Nikol Paşinyan hər dəfə bir söz deyir, ancaq fərqli mövqe nümayiş etdirir". Bunu SİA-ya açıqlamasında politoloq Teymur Qasımlı bildirib. Onun sözlərinə görə, hazırda Rusiya-Ukrayna müharibəsi gedir və bu müharibənin Ermənistana da təsiri var: "Son zamanlar işğaldan azad edilmiş torpaqlarımızda, Qarabağ ərazisində əsgərlərimizin yer dəyişməsi və digər strateji məntəqələrdə söz sahibi olmasına Paşinyan narazılıq ifadə edib. Bununla o, uğursuz diplomatik manevr edir. Sülh danışıqları o zaman olacaq ki, Ermənistan tərəfi və Rusiya üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirəcəklər. Bundan sonra sülh müqaviləsi olacaq".**

***Gülyana***

# Ermənistana

## QƏRBDƏN ZƏRBƏ!



Mövcudluğu yalnız iyanələrdən, yardımlardan asılı olan Ermənistan artıq bu baxımdan da məhrumiyyətlərlə üzləşmək məcburiyyətindədir. Bu zamana qədər Amerika Birləşmiş Ştatları kimi fövqəl dövlətdən və digərlərindən yardım alan ermənilərin belə yardımların məbləğinin davamlı şəkildə artacağı ümidləri də puça dönməkdədir. Dünya dövlətləri artıq işğalçı ölkənin məkrli niyyətlərindən nəinki xəbərdardır, ümumiyyətlə, belə məkrli niyyətlər üçün artıq vəsait ayırmaq marağında da deyillər və əslində bu mənada doğru yoldadırlar. Xüsusilə Bayden adminstrasiyasının gələn ilin maliyyə yardımlarında Ermənistana ayrılacaq vəsaitin az miqdarda olması barədə çağırışı deyilənləri təsdiq edir və həmin ölkənin də, onun hakimiyyətinin də movqeyini sərgiləyir.

Ağ Evin 2023-cü maliyyə ili üçün büdcə təklifində Bayden Adminstrasiyasının ABŞ Konqresini Ermənistana 23 milyon dollar maliyyə yardımı ayırmağa çağırması ümumilikdə erməni cəmiyyətini məyus etməyə bilməz. Bir qədər əvvəl Ermənistan üçün ayrılması nəzərdə tutulan məbləğin az qala yarısının ayrılması barədə çağırış, təkcə işğalçı ölkə vətəndaşlarına deyil, bütövlükdə dünya ermənilərinə təsirsiz ötüşə bilməz. Ələləxüsus ANCA adı ilə məşhur olan Amerika erməni milli komitəsinin, bütövlükdə erməni lobbisinin, erməni diasporunun bu çağırışdan məyus olması gözləniləndir. Bunu təkzib etmək olmaz. Əvvəla ona görə ki, bu təşkilat, diaspor və lobbi Ermənistana yardım etmək əvəzinə, onlar Ermənistana olunan yardıma gözlərini dikirlər və bu iyanələrdən qidalanırlar. Bu isə o deməkdir ki, həmin təşkilatların özlərinin də payından kəsilir və əl-qolları qismən bağlanmış olur. Digər tərəfdən də həmin təşkilatlar yaxşı bilirlər ki, Ermənistan belə yardımlar olmadan mövcudluğunu qoruyub saxlaya bilməyəcək və belə olan halda da onların özləri də mövcud olmayacaqlar. Ümumilikdə götürəndə, Ermənistan üçün ayrılan yardımın, iyanənin yarıya qədərinin azalması bu ölkənin də, onun lobbisinin də imkanlarının yarıya qədər azalması deməkdir və əgər bu zamana qədər ayaqda dura bilməyiblərsə, bundan sonra hansı şəklə düşəcəkləri elə özləri üçün sual olaraq qalır. Təsadüfi deyil ki, ermənilər bu çağırışı Ermənistana Qərbdən zərbə hesab edirlər.

Ermənistan artıq Qərbdən zərbələr alacağına çoxdan hazırlaşırdı və ermənilər bu zərbələrin onların mövqeyi, daha doğrusu mövqesizlikləri ilə bağlılığını da özləri yaxşı bilirlər. Bilirlər ki, işğalçılıqdan başqa heç bir fəaliyyət sərgiləməyən bir ölkə kimi Qərbin rəqbətini qazana bilməyəcəklər və ələlxüsus Qərbin istəyinə zidd olaraq Rusiyanın Ukraynada işğalçılığı fonunda Bayden Adminstrasiyasının belə bir çağırış edəcəyi gözlənilən idi. Əslində, aydın məsələdir ki, Qərb öz imici, öz nüfuzu naminə də olsa, ermənilərin hərəkətlərinin timsalında işğalçılığı ən azından bu anda dəstəkləyə bilməz. Yəni, bir tərəfdən Rusiyanı işğalçılıqda ittiham edən Qərb, digər tərəfdən Ermənistanın işğalçı siyasətini dəstəkləyə, bunun üçün maliyyə yardımı ayıra bilməz və bunu etməsi onun əleyhinə səslənə bilər. Bu baxımdan ermənilər yaxşı bilirdilər ki, bu gözlənilən idi və hətta yarıbəyarı azaldılsa belə bu qədər məbləğ heç ayrılmamalı idi Ermənistana, amma yenə də bu məbləğ onların yırtığına yamaq ola bilməyəcək deyə, məyusdurlar.

Məsələ burasındadır ki, təkcə maliyyə yardımının azaldılması çağırışı deyil, Ağ Evin 2023-cü il üçün büdcə təklifində Qarabağla bağlı məsələ də diqqətçəkən məqamdır və bu ermənləri heç də az qıcıqlandırmır. Təsəvvür edəndə ki, 2022-ci ilin dövlət büdcəsindən minaların təmizlənməsi məqsədi ilə Vaşinqton Qarabağa 2 milyon dollar ayırdığı halda, 2023-cü ilin büdcə təklifinə bu məsələni birmənalı şəkildə daxil etməyib ermənilərin kürkünə birə düşür. Ona görə ki, bu, Bayden Adminstrasiyasının Azərbaycanın bölgədə yaratdığı reallığı qəbul etməsi deməkdir və bu da ermənilər üçün Qərbdən daha bir zərbə oldu.

Təbii ki, Ermənistan, yaxud bu işğalçı ölkə vətəndaşları üçün ABŞ-ın, yaxud hansısa ölkənin bu zamana qədər belə yardım ayırması doğru addım olmayıb, çünki işğalçını təmin etmək işğala dəstək vermək deməkdir. Sözsüz ki, bu dəstəyi göstərənlər, işğalçılığa yardım edənlər bunun adekvat təsirləri ilə qarşılaşmalı oldular və məhz Rusiyanın bütün Qərb ölkələrini hesaba belə almadan işğalçı siyasət yürüdərək Ukraynaya daxil olması Qərb üçün bir dərs oldu. Qərb öz dərsini almış oldu ki, işğalçılığa dəstək verməklə bunun acı nəticələri ilə rastlaşmalı olacaq. Bu baxımdan indi Ermənistana yardımın azaldılması çağırışı anlaşılandır. Əslində, belə bir yardım ümumiyyətlə edilməməli idi və çağırış da bu istiqamətdə olmalı idi. Həm də ona görə ki, ayrılan yardımlar kriminal-terrorçu rejim tərəfindən, eləcə də erməni lobbisi, diasporu tərəfindən mənimsənilirdi. Bunun, bu yardımların erməni xalqına zərrə qədər aidiyyatı olmurdu, əksinə onun məhvinə, digərlərinin isə zərə çəkməsinə səbəb olurdu. Nəticə etibarı ilə xoşagəlməz sonluğa gətirib çıxardığı üçün bu yardımların ayrılması zamanında tamamilə dayandırılmalı idi, amma yenə də bu, yeni Bayden Adminstrasiyasının yardımın məbləqini yarıbəyarı azaltmaq çağırışı bir müsbət nəticədir və bu nəticə Qərbdən Ermənistana zərbə kimi görünür.

***İnam Hacıyev***



# 31 Mart soyqırımı

## bəşər tarixində ən qanlı faciələrdən biridir



Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrin əvvəllərindən başlayır. Həmin dövrdə torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyası ermənilərdən vasitə kimi istifadə edir, Qafqazda erməni milli dövləti yaradacağı vədi ilə onları şirnikləndirirdi. Bakıda və başqa yerlərdə ermənilərin məskunlaşdırılması üçün hər cür şərait yaradılmasını nəzərdə tutan fərmandan istifadə edərək ermənilər öz məkrli siyasətlərini həyata keçirmək, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədi ilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər. Ermənilərin fasilələrlə, lakin planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. Bununla da azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulmuşdur. Erməni təcavüzkarları XX əsrdə azərbaycanlılara qarşı daha amansız qanlı aksiyalar həyata keçirirdilər. Bakı şəhərində başlanılan erməni vəhşilikləri Azərbaycanın bütün ərazisinə yayılmışdır. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.

Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84 kənd, Nor-Bəyazid qəzasında 7 kənd, ümumiyyətlə, 197 kənd dağıdılmış, sakinlərin bir qismi qətlə yetirilmiş, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşmüş, əmlakları talan olunmuş, evləri isə yerlə yeksan edilmişdir. Azərbaycan tarixindəki dəhşətli hadisələrdən biri də 1918-ci ilin mart-aprel aylarında yaşanmışdı. Birinci Dünya müharibəsinin sonlarına yaxın, 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələri birlikdə azərbaycanlı əhalini kütləvi qırğınlara, soyqırımına məruz qoydular. Sovet hakimiyyəti dövründə təxminən 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı. Nəhayət, həqiqət anı yetişdi.

Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi. Bu zaman azərbaycanlılar əvvəlcə muxtariyyət, sonda isə müstəqillik uğrunda mübarizə aparırdılar. Soyqırımının törədilməsinin digər bir səbəbi əhalisi əsasən türk və müsəlmanlardan ibarət olan Cənubi Qafqaza, xüsusən Bakıya Osmanlı ordusunun buraxılmaması üçün Bakı və Bakı quberniyasını yerli, aborigen əhalidən təmizləmək idi. Bu zaman Cənubi Qafqazda yaşayan təqribən 6 milyon nəfər əhalinin, demək olar, 3 milyonu türk, müsəlman idi. Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Bakıda və onun ətrafında azərbaycanlıların silahlı qüvvəsi demək olar ki, mövcud deyildi. Bunun da başlıca səbəbi çarizmin müsəlman olduqları üçün azərbaycanlıları hərbi xidmətə çağırmaması ilə bağlı idi. 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi.

Azərbaycanlılara qarşı baş vermiş bu dəhşətli faciəyə görə, 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilsə də sonradan unudulub. Azərbaycan prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

***Ləman Əlizadə***

# 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə CƏMİYYƏTİN BAXIŞI

***1918-ci ilin 31 mart tarixində Bakı şəhəri və Bakı quberniyasının digər bölgələrində, həmçinin Şamaxı, Quba, Lənkəran, Qarabağ, Naxçıvan və digər bölgələrdə Bakı Soveti və Daşnaksütundan olan erməni silahlı dəstələri azərbaycanlılara qarşı kütləvi qırğın törətmişlər. Bu azərbaycanlılara qarşı törədilmiş nə birinci, nə də sonuncu qırğın oldu.***

Qədim dövrlərdən bəri öz torpaqlarımızda onalara yer, yaşamağa şərait yaratmışdıq. Lakin onlar bizim bu ürəkyumşaqlığımızdan istifadə edib bizi öz dədə-baba yurdumuzdan qovmağa çalışmış, xalqımızın başına min bir bəla gətirmişlər. 31 Mart soyqırımı nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilmişdir. Günahsız körpələr, qocalar, qadınlar işkəncə verilərək öldürülmüşdür. Sabah 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür. Bu hadisənin üzərindən 104 il ötür. Bəs görəsən şəhər şakinlərinin bu günlə bağlı fikirləri nələrdir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:

**Şəhər sakini İqrar Ağayev:** "Ermənilər hər zaman müsəlman türklərin paxıllığını çəkib. Hər zaman bizim yerimizə göz dikmiş, bizim vətənimizi öz torpaqları kimi qələmə vermək istəmişlər. Buna görə də hər dəfə azərbaycan-



lıların başına min bir bəla açmışlar. Günahsız insanlarımızın qanına girib onları qətlə yetirmişlər. Təbii ki, onlar öz əməllərindən heç vaxt dönmürlər. Amma bizim ordumuz və Ali Baş Komandanımızın siyasəti ilə biz onlardan qisasımızı aldıq".

**Şəhər sakini İlhamə Musayeva:** "31 Mart hadisələrində həm Bakıda, həm Şamaxıda, həm Lənkəranda qırğınlar törədilmişdir. Təkcə bu şəhərlərdə deyil, Azərbaycanın bir çox şəhərlərində erməni faşistləri azərbaycanlıları qətlə yetirmişdir. Allah düşmənlərimizə lənət eləsin. Onlar öz layiqli cavabları-



nı aldılar".

**Şəhər sakini Ceyhun Kafi:** "Bizim millətimizin hər zaman başına belə bəlalar gəlib. Bizim mərhəmətimizdən istifadə ediblər, qırğınlar törədiblər, millətimizi işgəncələrlə məhv ediblər. 31



Mart hadisələrində nəinki insanlarımıza, həm də mədəniyyətimizə ciddi ziyan dəymişdir. Abidələrimiz məhv edilmişdir".

**Şəhər sakini Zəminə Mirhadiyeva:** "Azərbaycan xalqının soyqırımı illərlə davam edib. Azərbaycanın torpaqları illərlə işğal olunub. Soyqırım azərbaycanlılara qarşı olub, amma ermənilər hər yerdə elə qələmə verirlər ki, guya soyqırımı ermənilərə qarşı törədilib. Halbuki belə bir şey olmayıb. Öz satqınlıqlarının qurbanı olublar. Hər



zaman başqa millətin əlində oyuncaq olublar. Xocalı faciəsini törədiblər. 20 faiz torpaqlarımızı işğal ediblər. İndi də şükür ki, ordumuz 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad ediblər. Cənab Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün torpaqlarımız azaddır".

**Şəhər sakini Səyyarə Məmmədli:** "Bu, ermənilərin başımıza gətirdiyi müsibətlərdən bəlkə də ən böyüyüdür. Bu soyqırım birinci deyil, sonuncu da olmadı. Bundan sonra Xocalı soyqırımını törətdilər. Ermənilər tarix boyu



azərbaycanlıların qanına susamış, onları qətlə yetirmişdir".

**Şəhər sakini Tahir Ağarəhimov:** "31 Mart soyqırımını unutmaq olmaz. Bu bizim qan yaddaşımızdır. Hətta ölkəmizdə soyqırımın 100 illiyi də keçirilmişdir. Şamaxıda, Qubada, Naxçıvanda, bir sözlə Azərbaycanın bir cox bölgələrində insanlar qətlə yetirilmişdir. Allahın evi sayılan məscidlərdə belə



insanlar diri-diri yandırılmışdır. Ermənilər o qədər qəddardırlar ki, insanları diri-diri yandırırlar".

**Şəhər sakini Gülbahar Misirova:** "31 Mart soyqırımı azərbaycanlıların yaşadıqları böyük faciələrdən biridir. Bu xalq çox bəlalar görüb. Quba qəzasında, Şamaxı qəzasında və başqa ərazilərdə xalqımız qırğına məruz qal-



mış, kütləvi şəkildə məhv edilmişdir".

***Abutel İlhamqızı***



## Çaylardan sui-istifadə qaydaları müəyyənləşdi - YENİLİK NƏDİR?

**Azərbaycanda artıq çaylara və digər su mənbələrinə nasoslar qoyub su götürmək üçün pul ödəmək lazım gələcək. SİA xəbər verir ki, bu barədə ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə bildirib.**

Çaylardan və digər su mənbələrindən götürülən suya görə pul ödənilməsi zərurəti bu günlərdə Nazirlər Kabineti tərəfindən təsdiqlənən sudan ödənişli istifadə qaydalarından irəli gəlir. "Ölkənin şirin su ehtiyatlarının azlığı, qlobal iqlim dəyişikliyi, son illərdə yağıntıların və qonşu ölkələrdən daxil olan suların xeyli azalması, digər tərəfdən, iqtisadiyyatın müxtəlif sahələrinin sürətlə inkişafı, kənd təsərrüfatı sahələrinin genişlənməsi və nəticədə suya olan tələbatın gündən-günə artması ölkənin davamlı sosial-iqtisadi inkişafında mühüm rolu olan su ehtiyatlarının qənaətlə istifadəsi və mühafizəsini olduqca əhəmiyyətli edir", - Rasim Səttarzadə Nazirlər Kabinetinin yeni qaydalarını şərh edərkən bildirib.

Onun sözlərinə görə, bu günədək Azərbaycanda suyun təbii sərvət kimi dəyərinin müəyyən edilməməsi sudan qənaətlə istifadəni təşviq etmədiyi kimi, həm də suyun dəqiq uçotunun və qiymətləndirilməsinin aparılmasını çətinləşdirirdi.

"Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli Qərarı ilə təsdiq edilmiş "Sudan ödənişli istifadə Qaydaları" Su Məcəlləsinə əsasən su ehtiyatlarının istifadəsi və mühafizəsi tədbirlərinin iqtisadi tənzimlənməsinin prinsiplərindən biri kimi hazırlanıb. Sudan ödənişli istifadə üzrə tariflərin tətbiq edilməsi su istifadəçilərinin bu sahədə hüquqi-iqtisadi öhdəlikləri ilə bağlı münasibətlərinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübədə, o cümlədən su resursları bol olan ölkələrdə belə təbii su mənbələrindən istifadə ödənişlidir. Qaydalara əsasən texniki qurğular və avadanlıqlar tətbiq etməklə, su və su təsərrüfatı obyektlərindən, o cümlədən yerüstü və yeraltı təbii su mənbələrindən, su anbarlarından bilavasitə su götürən hüquqi və ya fiziki şəxslər tərəfindən suyun həcminə görə ödənişlər həyata keçiriləcək", - nazirin müşaviri bildirib.

R.Səttarzadənin sözlərinə görə, eyni zamanda su təsərrüfatı sahəsində fəaliyyət göstərən qurumlar arasında da sudan istifadə ödənişli olacaq. "Sudan ödənişli istifadənin tətbiq edilməsinin əsas məqsədi su ehtiyatlarından səmərəli və qənaətlə istifadə olunması, suların mühafizəsinin yaxşılaşdırılması, suyun dəqiq uçotunun aparılması və su təsərrüfatı qurumlarının özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyətinin təmin edilməsidir", - o deyib.

Nazir müşaviri suyun həcminə görə ödənişlərin illik su təsərrüfatı balansının göstəriciləri üzrə təhlillərin nəticələri nəzərə alınmaqla tariflər əsasında hesablanacağını bildirib. Onun sözlərinə görə, sudan istifadə haqqı onun keyfiyyətindən, təyinatından, su təsərrüfatı obyektlərinin texniki səviyyəsindən, suyun götürülmə, nəqledilmə üsullarından və digər amillərdən asılı olaraq differensiallaşdırılacaq.

# MİDA mənzillə bağlı söz-söhbətə son qoydu

Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 6 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 442 mənzilin ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə güzəştlə satışı prosesinə 30.03.2022-ci il tarixində saat 11:00-da başlanılmış və mənzillərin seçimi qısa müddətdə uğurla başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 24.05.2017-ci il tarixli 1418 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq satışa çıxarılan 442 mənzilin seçimi "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" elektron sistemi vasitəsilə bərabər şəraitdə etibarlı, təhlükəsiz, şəffaf və fasiləsiz iş rejimində həyata keçirilmişdir. "Güzəştli mənzil" sistemində elektron kabinet əldə etmiş şəxslərin sayı 24 761 nəfərdir.

Bugünkü satış zamanı 442 mənzilin seçimində iştirak edənlərin sayı 8 939 nəfər olmuşdur. Bu saata olan məlumata görə seçilmiş 442 mənzilin 257-i vətəndaşlar tərəfindən uğurla imzalanaraq ərizələri təqdim edilmişdir.

Mənzillərin seçimi prosesi Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasında xüsusi karantin rejimi qaydalarına uyğun olaraq yaradılmış operativ qərargahda Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə müşahidə edilmişdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi isə 04 aprel 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 08 aprel 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Qaydaya əsasən satış müddətində seçilmiş bir mənzil həmin elan çərçivəsində daha iki şəxs tərəfindən də ardıcıl olaraq gözləmə qaydasında seçilə bilər. Bunun üçün, istifadəçi müəyyən edilmiş müddət ərzində "Güzəştli mənzil" sistemində elektron kabinetində müvafiq bölməyə daxil olaraq ödəniş üsulu, mənzil seçimi üsulu və layihəni seçərək mənzili axtarır. Mənzilə baxış mərhələsində bir neçə istifadəçi eyni mənzilə baxış keçirə bilər və "Təsdiq et" düyməsini sıxan ilk 2 şəxs həmin mənzili gözləmə qaydasında seçə bilər. Daha sonra istifadəçi gözləmə qaydasında seçdiyi mənzilin ərizəsini imzalayıb təqdim etməlidir. Əgər hər hansı bir səbəbdən mənzil onu seçmiş şəxs tərəfindən əldə edilmədikdə, ilk olaraq həmin mənzil gözləmə qaydasında birinci sırada seçmiş şəxsə təklif ediləcək. Eyni qaydada, əgər mənzil hər hansı bir səbəbdən birinci sırada seçmiş şəxs tərəfindən də əldə edilməsə, həmin mənzil gözləmə qaydasında ikinci sırada seçmiş şəxsə təklif ediləcəkdir.

# Erkən yaşda uşaq dünyaya gətirmək- valideyn məsuliyyətsizliyi, yoxsa...

**Ana olmaq üçün ideal reproduktiv yaşın 20-30 arası olduğu müəyyən edilib. Mütəxəssislər, 35 yaşdan sonra gec yaşda ana olmaq istəyən, lakin normal yollarla ana ola bilməyən qadınların yumurta sayının azalması və ya keyfiyyətinin pisləşməsi ilə əlaqədar olaraq hamiləlik nisbətinin aşağı düşdüyünü bildiriblər.**

Əvvəlki zamanlarda erkən nikahların nisbəti qadınlarda daha çox olduğundan analıq, adətən, erkən yaşlarda olurdu. Lakin günümüzdə ana olmaq yaşı günü-gündən artır. Qadının cəmiyyətdəki yeri, sosial-iqtisadi vəziyyəti, aktiv iş həyatı və ikinci nikaha girən qadınların sayının artması bu vəziyyətin ən böyük səbəblərindəndir.

Hal-hazırda irəli yaşda uşaq dünyaya gətirən, xüsusən də, ilk körpəni 30 yaşlarında gözləyən qadınların sayı çoxdur.



Həmçinin, gənc qadının bədənində bir çox hormonal və emosional dəyişikliklər baş verir.

Digər tərəfdən, erkən yaşda ana olmağın üstünlüyü o yaşda qadının enerji səviyyəsinin yüksək və daim aktiv olmasıdır. Uşağın yaşına görə gələcəkdə onunla daha rahat anlaşa bilməsi, dost kimi görünməsi üstünlük olduğundan bir sıra nəslin buna önəm verdiyini desək yanılmarıq.

Bir neçə gün bundan öncə Azərbaycanda 16 yaşlı qız hamilə qalıb. Yeniyetmə 2021-ci ildə Gəncədə bir oğlana qaçıb. Daha sonra rayonda gizlədilib. Lakin qızın xalası polisə şikayət edib. Bu zaman qız istəyi ilə qaçdığını deyib.

Bundan sonra yeniyetmənin yaşadığı Suraxanı rayonundakı polis bölməsinə xəbər verilib. Hazırda məsələ ilə bağlı araşdırma aparılır. 16 yaşlı bir qız və ana olmaq?! Keçmişdə bu hallar bəziləri tərəfindən normal qarşılansa da, günümüzdə sadəcə olaraq fəlakətdir. Bəs, burada günahkar kimdir? SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq, psixoloq, həkim ginekoloq və hüquqşünasların fikirlərini öyrənib.

**Cərrah, mama-ginekoloq Ləman Əliyeva:** ”16 yaşlı qızlar hələ uşaq sayılır. Onlar hamiləliyin nə olduğunu belə bilmirlər.

O yaşda qızın orqanizmi hələ inkişaf mərhələlərini bitirməyib və hormonları qadına lazım olan dərəcədə inkişaf etməyib. Hal-hazırkı ekologiya və indiki vəziyyətlə xanımlar heç yetkinlik yaşında belə normal hamiləlik yaşamırlar. 16 yaşında uşaq hamiləliyi necə başa vuracağı, onun dünyaya gətirdiyi uşaq hansı sağlamlıqda olacağı və daha sonra özünün vəziyyətinin necə olacağı sual altındadır.



Bunun qarşısını isə ancaq maarifləndirmə yolu ilə almaq olar. İnternet və ya televiziya vasitəsilə xalqımızı belə hallardan çəkindirmək lazımdır”.




**Psixoloq Zeynəb Eyyubova:** ”Ümumiyyətlə, ailə sistemində övladla valideyn arasında düzgün münasibət qurulması daha məqsədəuyğundur. Deməli, ilk öncə münasibətləri yoluna qoyub, daha sonra qıza təhsilin vacibliyini izah etmək lazımdır. Əgər bir qız ailədə ziyalılıq görərsə, o



da oxumağa meyilli olacaq.

Birmənalı olaraq, vaxtından tez ailə həyatı qurmağın, erkən hamiləliyin əleyhinəyik. Ümumiyyətlə, artıq qaçmaq dövrü deyil.

Normal cəmiyyətdə yaşayırıqsa, sivil şəkildə ailə həyatı qurmaq olar. Hər hansı bir oğlana qoşulub qaçmaq keçmiş dövrdə qalıb”.

**Hüquqşünas Fariz Əkbərov:** ”Uşaqlara, hətta qadınlara qarşı cinsi zorakılıq hallarına daha çox ailə daxilində rast gəlinir, nəinki çöldə. Bizə müraciət edənlərdən görürük ki, ilk cinsi pozuntular, istismarlar ailə üzvləri, qohum-əqrəba, yaxın adamlar tərəfindən olub.

Azərbaycan Respublikası ”Lanzarote Konvensiyası” kimi tanınan ”Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasına qoşulub.



Lansarote Konvensiyası cinayət məsuliyyətinə səbəb olan uşaqlara qarşı seksual xarakterli əməllər, belə əməllərin profilaktikası, qarşısının alınması və onlarla mübarizəyə dair tədbirlər, habelə dövlətlərin bu sahədə əməkdaşlığın istiqamətləri müəyyən edilir.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına və ölkəmizdə 1998-ci ildə qəbul olunmuş Uşaq Hüquqları haqqında qanuna əsasən, yetkinlik yaşına çatmayan şəxs dedikdə 18 yaşa qədər olan şəxslər nəzərdə tutulur. Lakin bəzi hallarda bu 14 və 16 yaş ola bilər. Məsələn, Cinayət Məcəlləsinin 152-ci maddədə həm 14, həm 16 yaşına çatmayan şəxslərlə bağlı fərqli cəza müddəti nəzərdə tutulub. Məsələn, cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər 16 yaşına qədər olan şəxslərə qarşı törədildikdə 3 ilə qədər, 14 yaşına qədər olan şəxslərə qarşı törədildikdə 3 ildən 6 ilə qədər azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Həmçinin, Cinayət Məcəlləsinin 153-cü maddənin 1-ci bəndinə görə, əxlaqsız hərəkətlər 16 yaşına çatmayan şəxslərə qarşı törədildikdə bu 2 ilə qədər azadlıqdan məhrumetmə ilə cəzalandırılırsa, 2-ci bəndinə görə, 14 yaşına çatmayan şəxslərə qarşı törədildikdə 3 ilə qədər azadlıqdan məhrum edilir”.

***Ayşən Vəli***

# 31 mart - Azərbaycanlıların Soyqırımı Günü və 44 günlük ...

## Prezident İlham Əliyev: "Tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar"

Hər bir millətin tarixində faciələr, qırğınlarla dolu səhifələr mövcuddur, lakin xalq o zaman gələcəyə inamla irəliləyir, o zaman qüdrətli, güclü olur ki, ulu öndər Heydər Əliyevin də qeyd etdiyi kimi, tarixi hadisələrə biganə yanaşmasın, faciələrdən nəticə çıxarmağı bacarsın. Artıq bu gün bütün dünya ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan, Qalib Lider İlham Əliyev tarixi hadisələrə "Dəmir Yumruq" siyasəti ilə erməni faşistlərinin və ona dəstək olanların iç üzünü Vətən müharibəsində bir daha gördü. 44 günlük Vətən müharibəsində Gəncə və Bərdə şəhərlərinə atılan bombalar nəticəsində 54 nəfər həyatını itirdi, 195 nəfər isə yaralandı. Ermənilər dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə etməklə vandal, nasist simalarını bütün dünyaya bir daha nümayiş etdirdilər.



*Muxtar Nağıyev, YAP Səbail rayon təşkilatının sədri*

### Ermənilərin azərbaycanlılara qarşı soyqırımı insanlıq əleyhinə cinayətdir

Ermənilər tarixin müxtəlif dövrlərində xalqımıza qarşı kütləvi qətliamlar törədib, soyqırımı aktları həyata keçiriblər. Bu cinayət əməllərinin miqyasına və nəticələrinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, bu soyqırımı aktları həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş konvensiyalara əsasən, həm də mənəvi-əxlaqi kodekslərə görə, insanlığa qarşı və bəşəriyyət əleyhinə cinayətdir. Təxminən iki yüz il ərzində ermənilərin öz havadarlarının köməyi ilə "böyük Ermənistan" yaratmaq kimi qondarma ideyanın gerçəkləşdirilməsi yolunda atdıqları addımlar Azərbaycan xalqına qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələnib. XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, Cənubi Azərbaycanda, Borçalıda, Bakı quberniyasında, Şamaxı, Quba, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da zaman-zaman azərbaycanlılara qarşı kütləvi qırğınlar, talanlar, terror və digər zorakılıq aktları həyata keçiriblər. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84, Nor-Bəyazid qəzasında 7, ümumiyyətlə, 197 kənd dağıdılıb, sakinləri ən vəhşi üsullarla qətlə yetirilib. 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələri azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar törədiblər. 1918-ci il martın 31- də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda, Daşnaksütyun partiyasının 4 minlik silahlı dəstəsi iştirak edirdi. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edib, uşaqdan böyüyədək hər kəsi qətlə yetiriblər."

### Bu qanlı faciəyə əsl hüquqi qiymət Ulu Öndər tərəfindən verildi

31 mart soyqırımı ermənilərin öz havadarlarının köməyi ilə iki yüz il ərzində xalqımıza qarşı törədilmiş genosid siyasətinin davamı idi. Bu qanlı faciəyə əsl hüquqi qiymət Ulu Öndər tərəfindən verildi. Məhz ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da "1918-ci il mart soyqırımı haqqında" Fərman imzalayıb. Fərmanda bu hadisələrlə bağlı Milli Məclisin sessiyalarının keçirilməsi, bu sahədə tədqiqat işlərinin aparılması, hər il mart ayının 31-nin milli matəm günü kimi qeyd edilməsi, bu faciənin dünya ictimaiyyətinə çatdırılması kimi konkret vəzifələr qoyulub. Bildirilib ki, bununla da Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşib. Həmin ildən etibarən bütün xalqımız bu tarixi "31 Mart Azərbaycanlıların soyqırımı günü" kimi qeyd edir. Prezident İlham Əliyev "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi" haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilib. Bir sözlə, bu Sərəncam Azərbaycan Prezidentinin dövlətçilik tariximizə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətinə verdiyi yüksək dəyər, Azərbaycan Respublikasının öz sələfinin hüququ və mənəvi mirasına sədaqətini nümayiş etdirdiyinin reallığıdır.

Bütün bunlar onu deməyə əsas verir ki, faşist ideologiyasına xidmət edən ermənilər Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Hər zaman saxta faktlar yaradaraq tarixi saxtalaşdırmağa çalışıblar. Prezident İlham Əliyev qeyd etdiyi kimi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən ermənilərin şəbəkələri saxta məlumat yaymaqla məşğuldurlar və olmayan şeyləri reallıq kimi qələmə verirlər. Əlbəttə, hər bir azərbaycanlı düşmənin məkrli siyasətinə qarşı ayıq olmalı, dövlətin atdığı addımların arxasında olmalıdır. Azərbaycan xalqı tarix boyu bir çox faciələrlə üzləşməsinə baxmayaraq, özünün müstəqillik əzmini qoruyub saxlayıb, yenilməz birlik və həmrəylik nümayiş etdirib. Xüsusilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və ordumuzun ətrafında "Dəmir yumruq" kimi birləşən Azərbaycan xalqı 44 gün ərzində gücünün, qüdrətinin nələrə qadir olduğunu düşmənə və bütün dünyaya bir daha nümayiş etdirdi. Artıq bütöv Azərbaycan var və Böyük Qayıdışın astanasındayıq. 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü təmin etməklə yanaşı, tarixi ədaləti də bərpa etdi. Və bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan 31 mart soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Qəhrəman ordumuz düşməni darmadağın edərək bütün şəhidlərimizin, 31 mart soyqırım qurbanlarının qisasını aldı. Ümid edirik ki, özlərini demokratiyanın beşiyi olaraq qəbul edən Qərb dairələri, nəhayət, bu reallıqlara gözünü açacaq və bəşər tarixinin ən qanlı faciələrindən biri olan 31 Mart Soyqırımına layiqli hüquqi qiyməti verəcəkdir.

Allah soyqırımı qurbanlarının ruhunu şad etsin!



Elçin Bayramlı

# Qlobal ərzaq böhranı qapıda: nə etməliyik?

**Qlobal ərzaq böhranı dünyada vəziyyəti gərginləşdirir. Ərzaq təminatında, xüsusən də taxılda ciddi problemlər yaranır. Son mövsümdə quraqlıq səbəbindən qlobal taxıl istehsalı 20 faizdən artıq azalıb. İri istehsalçılar taxılı depolayıb və ixracı azaldıb. Taxılın qiyməti isə davamlı bahalaşır. Həm də dünyada təkcə taxıl, yox əksər ərzaq məhsullarının qiyməti bahalaşır. Neftin qiymətinin artması xaricdən alınan bütün məhsulların qiymətini artırır.**

Azərbaycan buğdanı və bir çox email sənayesinə aid ərzaq məhsullarını da böyük həcmdə Rusiyadan idxal edir və burada da ciddi problem olmayacaq, lakin müəyyən məhsullarda çətinliklər yarana bilər. Ona görə də, mümkün alternativlərə də baxılmalıdır, məsələn ucuz və keyfiyyətli olduğuna görə İrandan da bəzi ərzaq məhsullarının idxalını artırmaq lazımdır.

Bizim təkcə buğda idxalımız 1,4 milyon tondur, bunun da 99 faizi Rusiyadan alınır. Rusiya da həm buğdanın idxalına məhdudiyyətlər qoyub, həm də ixrac rüsumlarını artırıb. Yəqin ki, hökumət Rusiya ilə lazımi həcmdə buğda idxalı haqda razılaşıb və taxıl idxalında probem olmayacaq. Bununla taxıl böhranından sığortalana bilərik, lakin bahalaşmadan yox.

Uzun müddət xarab olmayan ərzaq məhsullarının ehtiyatı yaradılmalıdır. Heyvandarlıq üçün yemlərin də bahalaşması dolayı yolla digər daxili istehsal ərzaq məhsullarının qiymətini artıracaq- quşçuluq və heyvandarlıq məhsullarının. Bu il süd və ət məhsullarının, unun və çörəyin qiymətinin bahalaşacağı ehtimalı yüksəkdir. Yerli istehsalın tələbatın yalnız 50 faizini ödəməsi idxaldan asılılığın yüksək olması deməkdir və bu da ərzaq qiymətlərinin bahalaşmasına səbəb olacaq.

Hökumətin ərzaq böhranının qarşısını almaq üçün imkanları var. Məsələn, subsidiyalar və dotasiyalar vasitəsilə çörəyin bahalaşmasının qarşısını almaq olar. Yerli ərzaq istehsalının artırılması üçün təcili tədbirlər görülə bilər. Bundan başqa, suvarma suyunun, dizelin və texnika icarəsinin qiyməti azı 2 dəfə aşağı salınmalıdır.

Hökumət ərzaq böhranının qarşısını almaq üçün artıq müəyyən addımlar atıb. 30-a yaxın adda əsas ərzaq məhsulunun ixracına məhdudiyyətlərin qoyulması da bu qəbildəndir. Bundan başqa, digər stimullaşdırıcı tədbirlərin də həyata keirləcəyi gözlənilir. Məsələn bir neçə gün əvvəl, baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, Tarif Şurası sudan istifadə haqqını 2 ay müddətində müəyyən etməlidir.

Fikrimcə, suvarma suyunun qiyməti endiriləcək. Növbəti addım kimi dizelin qiyməti aşağı salına bilər. 3-cü addım subsidiyalar artırıla bilər. Bu tədbirlər hamısı görülsə belə ərzaq çatışmazlığı və bahalaşma qaçılmazdır, amma heç olmasa vəziyyəti mümkün qədər kritiklikdən çıxarmaq olar.

Paralel olaraq sosial müdafiə rədbirləri gücləndirilə bilər. Maaş və pensiyaların artırılmasına ehtiyac yaranır. Bu artımlar büdcə təşkilatlarında işləyən əhalini əhatə etdiyindən digərləri üçün baqa tədbirlər görülə bilər. Özəl sektorda və fərdi işləyənlərin maaşlarının artması üçün stimullaşdırıcı tədbirlər görülməlidir. Bunun üçün minimum əməkhaqqı tələbi azı 100 manat civarında qaldırılmalıdır. İşçiləri əmək müqaviləsi olmadan işlədənlərin aşkar olunması və sərt cəzalandırılması vacibdir.

Fərdi işləyənlərin vergiləri azaldıla bilər. Aqrar sektorda işləyən sahibkarlara güzəştli və uzunmüddətli kreditlərin həcmi xeyli artırıla bilər. Əlillər, işsizlər və xəstələr üçün ayrılan sosial yardımların məbləği artırılması vacibdir. Bu tədbirlərin görülməsi əhalinin sosial müdafiəsini gücləndirər. Burada yeganə sual qalır- bəs bunun üçün tələb olunan maliyyə ehtiyatları hardan əldə olunacaq? Daxili imkanlar kifayət etməsə strateji rezervlərin xarici fondlarda uzunmüddətli qoyulmayan və çıxarıla bilən hissəsindən istifadə etmək olar. O vəsaitlər ölkənin dar günləri üçün yığılıb qorunur. Gözlənilən böhranın ağırlığını azaltmaq üçün lazım olan bütün imkanlar var. Hökumətin atacağı addımlar bunun qarşısını ala bilər.

**Forma № 1S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: ____"Zaman Sığorta və Təkrarsığorta üzrə Broker" MMC
Hesabat dövrü ___________ 01 Yanvar 2021 - 31 Dekabr 2021___________________________

*manatla*

| | AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| A1 | **Torpaq, tikili və avadanlıqlar** | 339823.18 | 289086.00 |
| A2 | **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| A3 | **Daşınmaz əmlaka investisiyalar** | | |
| A4 | **Qeyri-maddi aktivlər** | 1424426.64 | 1418494.00 |
| A5 | **Təxirə salınmış vergi aktivləri** | | 24724.00 |
| A6 | **Uzunmüddətli debitor borcları** | | |
| A7 | **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| A8 | dövlət qiymətli kağızları | | |
| A9 | qeyri-dövlət qiymətli kağızları | | |
| A10 | sair maliyyə aktivləri | | |
| A11 | **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| A12 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| A13 | **Sair aktivlər** | | |
| B1 | ***Cəmi uzunmüddətli aktivlər*** | 1764249.82 | 1732304.00 |
| | II. QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| C1 | **Ehtiyatlar** | 2284.93 | 38315.00 |
| C2 | **Debitor borcları:** | 1228144.69 | 1619982.00 |
| C3 | birbaşa sığorta üzrə | 201768.80 | 107112.00 |
| C4 | **təkrarsığorta əməliyyatları üzrə :** | 1024517.08 | 1453945.00 |
| C5 | - təkrarsığortaçı üzrə | 836654.13 | 1042468.00 |
| C6 | - təkrarsığortalı üzrə | 187862.95 | 411477.00 |
| C7 | asılı təşkilatlar üzrə | | |
| C8 | büdcə üzrə | 1858.81 | |
| C9 | iddia tələbləri üzrə | | |
| C10 | işçi heyəti üzrə | | |
| C11 | sığortalılara verilən borclar üzrə | | |
| C12 | sair debitorlar | | 58925.00 |
| C13 | **Pul vəsaitləri və onların ekvivalentləri:** | 905669.17 | 403614.00 |
| C14 | kassa | 193.63 | 341.00 |
| C15 | hesablaşma hesabı | 240518.19 | 70543.00 |
| C16 | valyuta hesabı | 623749.78 | 315730.00 |
| C17 | depozit hesablar | | 17000.00 |
| C18 | sair pul vəsaitləri | 41207.57 | |
| C19 | **Qısamüddətli maliyyə aktivləri:** | | |
| C20 | dövlət qiymətli kağızları | | |
| C21 | qeyri-dövlət qiymətli kağızları | | |
| C22 | sair maliyyə aktivləri | | |
| C23 | **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| C24 | həyat sığortası sahəsi üzrə | | |
| C25 | qeyri-həyat sığortası sahəsi üzrə | | |
| C26 | **Sair qısamüddətli aktivlər:** | 29744.68 | 28218.00 |
| C27 | gələcək hesabat dövrlərinin xərcləri | 11944.68 | 5031.00 |
| C28 | verilmiş avanslar | 17800.00 | 18214.00 |
| C29 | təhtəl hesablar | | 4973.00 |
| C30 | **Sair aktivlər** | 4732.00 | 4732.00 |
| D1 | ***Cəmi qısamüddətli aktivlər*** | 2170575.47 | 2094861.00 |
| E1 | **CƏMİ AKTİVLƏR** | 3934825.29 | 3827165.00 |

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I. KAPİTAL | | |
| F1 | **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 14000.00 | 255100.00 |
| F2 | **Emissiya gəliri** | | |
| F3 | **Geri alınmış kapital (səhmlər)** | | |
| F4 | **Kapital ehtiyatları:** | | |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| F6 | digər kapital ehtiyatları | | |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 1728846.95 | 1836223 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | 980750.09 | 443377.00 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 748096.86 | 1392846.00 |
| F11 | Elan edilmiş dividendlər | | |
| G1 | ***Cəmi kapital*** | 1742846.95 | 2091323.00 |
| | II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| H1 | **Sığorta ehtiyatları:** | | |
| H2 | Həyat sığortası sahəsi üzrə : | | |
| H3 | Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| H4 | **Qarşısıalınma tədbirləri fondu** | | |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| H7 | **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| H8 | **Kreditor borcları :** | 0.00 | 0.00 |
| H9 | əməyin ödənilməsi üzrə | | |
| H10 | büdcə üzrə | | |
| H11 | sosial sığorta və təminat üzrə | | |
| H12 | digər məcburi ödənişlər üzrə | | |
| H13 | asılı təşkilatlar üzrə | | |
| H14 | sair kreditorlar | 0.00 | 0.00 |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | | |
| H16 | gələcək hesabat dövrünün gəlirləri | | |
| H17 | alınmış avanslar | | |
| H18 | **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | |
| H19 | təkrarsığortaçı üzrə | | |
| H20 | təkrarsığortalı üzrə | | |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| H22 | **Sair öhdəliklər** | | |
| I1 | ***Cəmi uzunmüddətli öhdəliklər*** | 0.00 | 0.00 |
| | III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| J4 | **Kreditor borcları:** | 536073.55 | 591847.00 |
| J5 | əməyin ödənilməsi üzrə | 0.00 | |
| J6 | büdcə üzrə | 31268.79 | 13855.00 |
| J7 | sosial sığorta və təminat üzrə | 0.00 | |
| J8 | digər məcburi ödənişlər üzrə | | |
| J9 | asılı təşkilatlar üzrə | | |
| J10 | sair kreditorlar | 504804.76 | 577992.00 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | 1179918.56 | 1037623.00 |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | 1179918.56 | 1037623.00 |
| J13 | alınmış avanslar | 0.00 | 0.00 |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 475986.23 | 106372.00 |
| J15 | **Sair öhdəliklər** | | |
| K1 | ***Cəmi qısamüddətli öhdəliklər*** | 2191978.34 | 1735842.00 |
| L1 | ***CƏMİ ÖHDƏLİKLƏR*** | 2191978.34 | 1735842.00 |
| M1 | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 3934825.29 | 3827165.00 |
| N1 | Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Forma № 2S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı:_"Zaman Sığorta və Təkrarsığorta üzrə Broker" MMC
Hesabat dövrü ___________ 01 Yanvar 2021 - 31 Dekabr 2021_________________________
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | |
| A2 | birbaşa sığorta üzrə sığorta haqları | |
| A3 | təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| A4 | sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| A5 | təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| A6 | **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | |
| A8 | **Subroqasiya gəlirləri** | |
| A9 | **Sair gəlirlər** | 2052036.00 |
| B1 | **CƏMİ GƏLİRLƏR** | **2052036.00** |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | **0.00** |
| C2 | sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| C3 | qaytarılan sığorta haqları üzrə | |
| C4 | tənzimləmə xərcləri | |
| C5 | təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| C6 | qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| C7 | sığorta fəaliyyəti üzrə sair xərclər | |
| C8 | **İşlərin aparılması xərcləri** | 1608659.00 |
| C9 | **Sair xərclər** | 0.00 |
| D1 | **CƏMİ XƏRCLƏR** | **1608659.00** |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | 443377.00 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0.00 |
| E3 | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 443377.00 |
| E4 | **Mənfəət vergisi** | 0.00 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 443377.00 |

**Baş Direktor** **Əhmədov Şahin**

M. Y.

**Maliyyə Direktoru** **Əfəndizadə Tutu**

# “Şuşa daha möhkəm, gözəl bir şəhərə çevriləcək”

""Şuşa ili" ilə bağlı görülən tədbirlərin ən mühümü azad olunmuş Şuşada müəyyən infrastrukturun yaradılmasıdır, Şuşanın müasir dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Nizami Cəfərov bildirib. Onun sözlərinə görə, Şuşa bizim üçün mənəvi əhəmiyyətə malikdir: "Şuşanın tarixi ilə bağlı tədqiqatlar genişləndirilib, onun mədəniyyət, musiqi, ədəbiyyat, elm mərkəzi kimi inkişaf etdirilməsi olduqca vacibdir və bu istiqamətdə ilk addımlar atılıb. Cənab Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirlər bu istiqamətdə davam etdirilir. Bu işlər hələ də öz axarında irəliləyir. Yəni Şuşada yaşayış imkanları genişləndikcə həmin tədbirlər də həyata keçirilir. Şuşanın mədəniyyət mərkəzinə çevrilməsi ilə bağlı cənab Prezidentin verdiyi fərmana əsasən TÜRKSOY da məsələ qaldırıb ki, Şuşa türk dünyasının mədəniyyət mərkəzlərindən biri elan olunsun. Eləcə də dünyanın beynəlxalq səviyyəli digər təşkilatları da bu məsələyə maraq göstərib.

Şuşa konkret tarixi olan qədim şəhərlərimizdəndir. Eyni zamanda Qarabağ xanlığının paytaxtı kimi necə inkişaf etdiyi məlumumuzdur. 18-ci əsrdə Azərbaycanın intibah mədəniyyətinin ən yüksək səviyyəyə qalxdığı bir şəhərdir. Bu dövrdə bizim bir sıra şəhərlərimiz meydana çıxmış, inkişaf etmişdir. Şuşa ilə yanaşı Şəki, Bakı, Gəncə, Quba və digər bir sıra şəhərlər intibah dövrüdə yaranmış şəhərlərdir. Bütövlükdə 17-18-ci əsrlərdə Azərbaycanda yeni bir şəhər mədəniyyəti yaranıb. Kənd, elat mühiti ilə sıx bağlı olan tamamilə milli şəhərlərdir.

Eləcə də xalqımızın mənəviyyat, ictimai-siyasi, mədəniyyət tarixinin tərkib hissəsi kimi Şuşa ona görə maraqlıdır ki, yanlız 18-ci əsrdə yox, 19-20-ci əsrin əvvəllərində də bizim üçün çox böyük amil olub. Şuşa Əhməd bəy Ağayev kimi siyasətçinin vətənidir. Şuşa həm musiqi, həm ədəbiyyat, həm rəssamlıq, həm də poeziya sahəsində vacib şəxsiyyətlərin vətənidir. Yəni Şuşanın zəngin bir mənəvi irsi var.

Şuşa eyni zamanda işğalçılara qarşı dayanıqlı olan mərkəzdir. Düşünürəm ki, "Şuşa ili" həm Şuşanın dirçəlməsinə, həm də onun tarixi nüfuzunun qaytarılmasına çox ciddi təkan verəcək. Həmçinin Şuşa daha möhkəm, gözəl bir şəhərə çevriləcəkdir".

***Abutel İlhamqızı***



# Erməni vəhşilikləri dünya ictimaiyyətinin diqqətinə çatdırılır

## Azərbaycan xalqı faciə qurbanlarının xatirəsinə hər zaman xüsusi qayğı və sevgi ilə yanaşır

**1918-ci ilin 30 mart - 3 aprel tarixində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Sovetinə daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırım aktı törədiblər.**



*Mehdi BALABƏYOV, YAP Şabran rayon təşkilatının sədri*

Rəsmi mənbələrə əsasən, soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Azərbaycanlılara qarşı baş vermiş bu dəhşətli faciəyə görə, 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilsə də, sonradan unudulub. Yanız Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Tarixi faktlara əsasən, 1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabının nəticəsində, Stepan Şaumyanın başçılıq etdiyi bolşevik dəstəsi Bakı Soveti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdir. Etnik erməni olan və Britaniya hökumətindən milyon qızıl rubl məbləğində ilkin yardım alan Stepan Şaumyan, Bakıda azərbaycanlılara qarşı bolşeviklərlə erməni milliyətçilərinin əməkdaşlığını təmin etmişdir. 9 mart 1918-ci ildə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyevin dəfn mərasimində iştirak etmək üçün general Talışinskinin başçılıq etdiyi Azərbaycan alayı Bakıya gəlmişdir. Məhəmməd Tağıyev Lənkəran şəhərində baş verən ixtilafda rus-erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdir və onun dəfn mərasimi 27 mart gününə təyin edilmişdir. General Talışinski Bakıya gəlməzdən bir neçə gün əvvəl Lenin Bakı Sovetinin başçısı Stepan Şaumyana gizli teleqram göndərir. Leninin Şaumyana etdiyi bu müraciətə baxmayaraq, Bakıya daxil olarkən general Talışinski və Azərbaycan alayının üzvləri Bakı Soveti tərəfindən həbs altına alınmışlar, nəticədə şəhərdə yaşayan azərbaycanlılar Bakı Sovetinə qarşı müqavimət göstərməyə başlamışlar. Baş verən silahlı münaqişə martın 30-dan aprelin 2-də qədər Bakıda davam etmişdir və tarixdə "1918-ci ilin Mart Günləri" kimi qalmışdır. Bolşeviklərin böyük dövlətçilik siyasətinin labüd nəticəsi olan soyqırım Azərbaycanda milli istiqlala qarşı açıq-aydın sui-qəsd idi. Mart soyqırımından bir il sonra ermənilər bu hadisələri bolşeviklərlə müsəlmanlar arasında cərəyan edən hakimiyyət mübarizəsi kimi mətbuatda yaydılar. 1919-cu ilin yayında ABŞ tərəfindən Bakıya göndərilən general Harborda təqdim edilən sənəddə erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını inkar edir. Baqrat Bakıda hadisələr zamanı öldürülən 1000 nəfərdən 300-nün erməni və rus, 700-nün müsəlman olduğunu iddia edirdi. Bu soyqırım təkcə Bakıyla əhatəli deyildi. Aprel ayının ilk ongünlüyündən etibarən Bakıda törədilən bu qətliamlar eynilə Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Səlyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər bölgələrdə də edildi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişini daha yaxşı öyrənmək imkanı əldə edilib, uzun illər gizli qalan həqiqətlər tədricən üzə çıxıb, təhrif edilmiş hadisələr aşkarlıq müstəvisində daha aydın görünməkdədir. Xalqımıza qarşı zaman-zaman törədilmiş və heç vaxt tarixi qiymətini almamış soyqırımı hadisələri də bu qəbildəndir. Erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq və bu ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaq olub. Ermənistan 1988-ci ildən başladığı növbəti təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabağ ərazisini, eləcə də ona bitişik yeddi rayonu işğal edib. Beləliklə, ölkəmizin 20 faiz ərazisi zəbt edilib, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu qanlı faciələrin daha dəhşətlisi 1918-ci ilin 31 mart tarixində azərbaycanlılara qarşı törədilən soyqırımı hadisələridir. Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlandı. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilib, ermənilər evlərə od vuraraq, insanları diri-diri yandırıblar. Nadir tarixi abidələr, məktəblər, xəstəxanalar, məscidlər dağıdılıb, xarabalığa çevrilib. Erməni-bolşevik birləşmələrinin Bakıda 31 mart və 1-2 aprel tarixlərində törətdiyi qırğınlar kütləvi şəkil alıb, silahlı erməni dəstələri günahsız insanları amansızcasına qətlə yetiriblər. Qırğınların davam etdiyi dövrdə Azərbaycan ərazisində yüz minlərlə soydaşımız, o cümlədən Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı milli mənsubiyyətinə görə qəddarlıqla öldürülüb. Ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdır.

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il martın 31-i "Azərbaycanlıların soyqırımı günü" elan edilmişdir. Bundan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görülmüş, çoxlu əsərlər yazılmış və əcnəbi dillərə tərcümə olunmuşdur. Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel - may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar olunub. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Aparılan tədqiqat zamanı müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli 3587 nömrəli Sərəncam imzalanmışdır. Cənab Prezident İlham Əliyev ermənilərin ötən əsrdə etdikləri genosid faktlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində mütərəqqi addımlar atmış və atmaqdadır. Bu faciələr tariximizin bütün dövrlərində dəfələrlə təkrarlanmış həqiqətlərdir və bunları unutmağa mənəvi haqqımız yoxdur. Azərbaycan xalqı faciə qurbanlarının xatirəsinə hər zaman xüsusi qayğı və sevgi ilə yanaşır. Xalqımız qəhrəman qızlarını və oğullarını heç zaman unutmayacaqdır!

# 1918-ci ilin mart soyqırımları bəşər tarixində də ən qanlı faciələrdən biridir

**Azərbaycan tarixində çoxlu şanlı səhifələrlə yanaşı faciəli, soyqırımlı səhifələr də vardır. Belə dəhşətli hadisələrdən biri 1918-ci il mart-aprel ayında erməni millətçiləri tərəfindən törədilmişdir. Erməni millətçiləri mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə xalqımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Mart soyqırım təkcə Azərbaycan tarixində deyil, dünya tarixində törədilən ən qanlı faciələrdən biridir.**



*Zinyət Tağıyeva, 182 nömrəli tam orta məktəbin direktoru, "Tərəqqi" medalı təltifçisi*

Hələ 1917-ci ilə Rusiyada baş vermiş oktyabr inqilabı nəticəsində erməni millətçisi Stepan Şaumyanın başçılıq etdiyi bolşevik Bakı Soveti Bakıda hakimiyyəti ələ keçirmişdi. Onlar türk-müsəlman əhalisini qırmaq, Bakını rus-erməni şəhərinə çevirmək istəyirdilər. Bu işdə erməni "Daşnaksutyun" partiyası da yaxından kömək edirdi. Beləliklə, 1918-ci ilin martın 30-da bolşevik-daşnak qüvvələri Bakıda azərbaycanlıların kütləvi qırğınına başladılar. Düşmənlər qocaya, qadına, hətta azyaşlı körpə uşaqlara da vəhşicəsinə qanlı divan tutdular, insanları süngüdən keçirərək diri- diri yandırdılar, evlərini dağıtdılar. Aprelin 3-dək minlərlə müsəlman əhali qətlə yetirildi.

Mart soyqırımı nəticəsində təkcə Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi, ümumilikdə isə 30 mindən çox azərbaycanlı qətlə yetirilmişdir. Milli memarlıq abidələrimiz, məktəblər, xəstəxanalar, məscidlər və digər binalar dağıdıldı. Bakının böyük bir hissəsi xarabalığa çevrildi, nadir memarlıq abidəmiz olan "İsmailiyyə" binası, Tağıyev teatrı, "Açıq söz" və "Kaspi" qəzetinin redaksiyaları yandırıldı, "Təzəpir" məscidi dağıdıldı. Bu qırğınlar təkcə Bakıda deyil, Qarabağda, Naxşıvanda, Göyçayda, Şamaxıda, Qubada, Kürdəmirdə, Salyanda və Lənkəranda törədilmişdi. Mart hadisələri ilə bağlı məlumatların çoxu məhv olunduğu üçün yenidən araşdırılır. Son araşdırmalara görə təkcə Şamaxı əhalisindən təqribən ermənilər tərəfindən 14-16 min nəfərin, onun 40 kənd və obasında 6-8 min nəfərin öldürüldüyü bildirilir, didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olmuşdur. Quba qəzasında isə ümumilikdə 4 min nəfərdən artıq olduğu bildirilir. Bu soyqırım nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılmış, 2750 ev yandırılmışdır.

2007-ci il aprelində Quba stadionunun təmiri ilə əlaqədar qazıntı işləri aparılan zaman kütləvi məzarlıq aşkarlanmışdı. Məzarlıqda 500-dək insan kəlləsi vardı, onların 50-dən çoxu uşaqlara, 100-dən çoxu isə qadınlara məxsus idi. Bu insanların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımın qurbanı olduğu sübuta yetirildi. Araşdırmalar göstərir ki, ermənilər dinc əhaliyə divan tutarkən odlu silahdan istifadə etməyiblər, sümüklərdə güllə yeri yoxdur, buradakı soydaşlarımız başlarına küt alətlə, mismar vurmaqla qətlə yetirilmişdir, sonra isə quyulara doldurulub üzəri torpaqla örtülmüşdür.

Ermənilərin xalqımıza qarşı törətdiyi Mart soyqırımı faciəsinin araşdırılması və bu həqiqətlərin dünyaya yayılması işi Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə siyasi qiymət verilmiş və 31 Mart "Azərbaycanlıların soyqırım günü" elan edilmişdir. Həmin Fərmanın icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsilə bağlı Ulu Öndər Heydər Əliyev 30 mart 1999-cu ildə tədbirlər planı təsdiq etmişdir.

31 Mart soyqırımı təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, bu soyqırım haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Xalqımızın başına gətirilən bu müsibətlər, faciələr dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə tədqiqatçılar tərəfindən qəti şəkildə araşdırılır, yeni faktlar üzə çıxarılır. Məhz xalqımızın tarixi yaddaşının qorunması və soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Prezident cənab İlham Əliyev 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində "Soyqırım memorial kompleksi" yaradılmasına qərar vermiş və Soyqırımı memorial kompleksinin açılışı zamanı çıxış edərək demişdir: "1918-ci il mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırım törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız faşizmin qurbanı olmuşdur... Bakı soyqırımı, Quba soyqırımı, İkinci dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlə və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir". Eyni zamanda, bolşevik-daşnak silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə düzgün çatdırılması məqsədilə Prezident cənab İlham Əliyev 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır.

Xalqımız ona qarşı törədilən bu cinayətləri heç vaxt unutmayacaq, daim güclü və mübariz xalq kimi yaşayacaqdır.

# İnsanlığa qarşı erməni terroru

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## Mart soyqırımının tarixin ən dəhşətli genosid aktlarından biri olduğunu tarixi sənədlər və real faktlar sübut edir

I Dünya müharibəsindən sonra Rusiyada və dünyada yaranmış xaotik vəziyyətdən istifadə edən ermənilər öz istədiklərinə nail olmağa cəhd edirdilər. 1918-ci il martın sonlarından başlayaraq Azərbaycanda ermənilər tərəfindən dəhşətli soyqırım aktı həyata keçirilib. Ölkənin müxtəlif bölgələrində törədilən qətliamlar nəticəsində müxtəlif millətlərə mənsub on minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib. Son vaxtlar bu soyqırım aktına dair çoxsaylı faktlar və sənədlər aşkarlanır və dünya ictimaiyyətinə çatdırılır. Bu, yalançı erməni təbliğatının qarşısının alınmasında, dünyaya gerçəklərin çatdırılmasında çox mühüm rol oynaya bilər.

**QISA ARAYIŞ:** Tarixi sənədlərə görə, erməni daşnak qüvvələrinin 1918-1920-ci illərdə Bakıda həyata keçirdiyi qırğınlar zamanı 30 mindən çox dinc sakin öldürülüb. Ermənilər təkcə Naxçıvanda 1919-cu ildə 4000, 1920-ci ildə 64408, həmin il daha 5307, 1921-ci ildə isə 12 azərbaycanlını qətlə yetiriblər.

Şamaxı qəzasında 58, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qarsda 92 kənd yerlə-yeksan edilib. Ermənilər Şamaxı ərazisində 7 mindən artıq insanı, o cümlədən 1653 qadını və 1000-ə yaxın uşağı qətlə yetiriblər.




İrəvan quberniyasında isə öldürülən azərbaycanlıların sayı 130 min nəfərdən çox olub. Erməni hərbi birləşmələri on minlərlə dinc azərbaycanlını yalnız milli mənsubiyyətinə görə məhv edib, evlərə od vurub, insanları diri-diri yandırıb, milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, digər tikililəri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər.

### ”Çox dəhşətli faktlar aşkar etmişik”

Son vaxtlar bu soyqırım aktına dair yeni faktlar və sənədlər aşkarlanır. Bir neçə il qabaq qəzetimizə müsahibəsində AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov bununla bağlı maraqlı faktlar açıqlamışdı: ”1918-ci il mayın 29-da AXC-nin yarandığını elan edən Müsavat hakimiyyəti xalqla uyğunlaşmayaraq İrəvanı və ətrafındakı torpaqları onların da bir siyasi mərkəzi olsun deyə ermənilərə verdi. Nəticədə 9 min kv.km-lik ərazidə Ararat Respublikası yarandı.

1918-ci il mayın 30-dan dövlət səviyyəsində o ərazidən azərbaycanlı əhalini məhv eləməyə, təmizləməyə başladılar. Təhqiqatlarımız göstərir ki, Azərbaycan xalqına qarşı bütün Azərbaycanda və İrəvanda soyqırım həyata keçiriblər”.

Tarixçi ailm qeyd edib ki, 1919-cu ildə 20-25 gün ərzində təkcə 2 qəzada 500 minə yaxın azərbaycanlı öldürülüb: ”Onların necə məhv edilməsi üsulları tarixdə görünməyən vəhşilik, vandallıq əlamətidir. Tarixdə heç yerdə elə bir fakt yoxdur ki, bir xalqı məhv etməkdən ötrü ermənilərin tətbiq etdiyi üsullar istifadə olunsun. Hamilə qadınların kürəyinə samovar bağlamaq, camaatı məscidə dolduraraq diri-diri yandırmaq, izi itirməkdən ötəri insanları doğrayıb Araza tökmək, körpələrin başını kəsmək və s.”.

### Körpələri və qadınları da vəhşicəsinə öldürüblər

Erməni siyasi partiyaları təxminən 7000 erməni əsgərini müxtəlif cəbhələrdən Bakıya gətirmişdilər. Qabaqcadan hazırlanan plan əsasında ermənilər hər cür hazırlığı etmişdi. Martın 30-u axşam saat 5-də Bakıda ilk atəş səsləri eşidildi.

Yaxşı silahlanmış və hazırlıqlı erməni əsgərləri azərbaycanlıların evlərinə basqınlar edərək onları öldürür, 3-4 günlük körpələri xənçərlə qətl edir, uşaqları alovlar içinə atırdılar. Qadınlar daha ağır şəkildə öldürülürdülər. Arxiv materiallarına görə qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyidi tapılmışdı.

Mir Cəfər Pişəvəri öz xatirələrində yazır: ”Mən 1918-ci ilin martında erməni daşnaklarının vəhşiliklərini, günahsız adamların öldürülüb, meyidlərin yandırılmasını öz gözlərimlə gördüm. Bu çox nifrət ediləcək bir hərəkətdir”.

Daşnaklar həm də milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər.

Bu soyqırım təkcə Bakıyla əhatəli deyildi. Soyqırım prosesi Azərbaycanın bütün ərazisində davam etdirilib. Lənkəranda, Kürdəmirdə, Qubada, Şamaxıda və digər yerlərdə qırğınlar törədilib. Bunun zirvə nöqtəsi isə, 1918-ci ilin martında Bakıda olub. İngilis mənbələrində göstərilir ki, ermənilər tərəfindən həmin ilin martında 25 min nəfər qətlə yetirilib.

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni faşistləri müxtəlif millətlərə mənsub on minlərlə azərbaycanlını qətlə yetirilib, on minlərlə insan öz torpaqlarından qovulub.

Ermənilər təkcə Naxçıvanda 1919-20-ci illərdə 70 minə yaxın azərbaycanlını qətlə yetiriblər. Digər bölgələrdə də minlərlə azərbaycanlı öldürülüb.

### 1918-1920 soyqırımları zamanı azı 1 milyon azərbaycanlı qətlə yetirilib

Ermənilərin 1918-ci il mart və aprel aylarında Şamaxı və ona qonşu kəndlərdə törətdikləri qətliamları isbat edən çoxlu sayda arxiv materialı var. Bu materiallar arasında 22 noyabr 1918-ci ildə Təcili Araşdırma Komissiyasının başçısı A.Xasməmmədovun Azərbaycan Respublikası Ədliyyə Nazirliyi başçısına Şamaxı şəhəri və ona qonşu kəndlərin dağıdılması və azərbaycanlılar üzərində ermənilərin işgəncələri və cinayətləri haqqında məlumatını, həmin komissiyanın üzvü A.Novatskinin bu məsələylə bağlı komissiya başçısına verdiyi məlumatı, bu işlərdə cinayətkar şəxslərlə bağlı məhkəmə işinin başladılması haqqında Təcili Araşdırma Komissiyasının 12 iyul 1919-cu il tarixli qərarı göstərmək olar.

Şamaxı şəhəri və ona qonşu olan kəndlərdə ermənilər tərəfindən törədilən soyqırım hadisələri haqqında 7 cild, 925 səhifədən ibarət araşdırma materiallarında toplanmış məlumatlar ermənilərin cinayət və qətliamlar etdiklərini bir daha göstərir.

Şamaxıda silahlanmış və üstünlüyü ələ keçirmiş ermənilər buranı azərbaycanlılardan təmizləməyə başladılar. Şamaxıya gələn erməni silahlı dəstələri ilk olaraq yaşlıların, qadın və uşaqların gizləndiyi məscidi mühasirəyə almağı, sonra isə yandırmağı əmr etdi. Arxivlərdə göstərilir: ”...Uşaq və qadınların böyük bir hissəsi məsciddə gizləndi. Tanınmış axund Molla Cəfərqulu öldürüldü. Hər kəs axunda bir şey edilməyəcəyini, ona əl qaldırılmayacağını fikirləşirdi. Amma ermənilər məscidə girərək axundu tapdılar. Onun gözlərini çıxarıb, dilini, burnunu və qulaqlarını kəsdilər. Məsciddəki bütün qadınlar öldürüldü”.

Şamaxıda təxminən 8 minə yaxın insan öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaq idi. 1918-ci ildə 15 min əhalisi olan Şamaxının 1921-ci ildə əhalisi təxminən 1701 nəfərə enmişdi.

Quba qəzasına gələn erməni silahlı birləşmələri tərəfindən aprel ayında bu bölgənin 122 kəndi dağıdılmış, yüzlərlə azərbaycanlı, yəhudi və ləzgi qətlə yetirilmişdi. Ermənilərin Qubada törətdikləri qətliamlar haqqında həmin dövrdə şəhərin rəisi olmuş A.Əlibəyov yazır: ”Ermənilər şəhəri tərk etdikdən sonra mən şəhərə dəyən maddi zərəri dəyərləndirdim və eyni zamanda bir neçəsi uşaq və qadın olmaq üzərə 2000-dən çox insanın qətl edildiyini araşdırdım”.

İndi dünyaya yalançı erməni soyqırımı nağıllarını qəbul etdirmək istəyən ermənilər bu tarixi faktlar qarşısında aciz vəziyyətə düşürlər. Azərbaycan və qonşu ölkələrin arxivlərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri dəhşətli soyqırım haqda minlərlə fakt və sənədlər var. Bunlar ermənilərin iç üzünün açılması və vəhşi ermənilərin dünya qarşısında ifşası üçün tam kifayət edir.

Təəssüf ki, biz bu faktı dünya birliyinə çatdıra bilmirik. Dünya ermənilərin azərbaycanlıları soyqırıma məruz qoyaraq, Azərbaycan torpağı üzərində özlərinə dövlət yaratdığı faktını qəbul etməlidir.

Ümumilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Və hər il martın 31-i bütün dünyadakı azərbaycanlılar tərəfindən soyqırım qurbanlarının xatirəsi yad edilir.

*Elçin Bayramlı*

SON SƏHİFƏ
SƏS
31 mart
2022-ci il



# Suares Messinin rekordunu qırdı!

**Futbol üzrə Uruqvay millisinin hücumçusu Luis Suares yeni rekorda imza atıb. Belə ki, "Altetiko"nun forvardı DÇ-2022-nin seçmə mərhələsinin Çili ilə səfər matçında (2:0) qol vurmaqla buna nail olub. Suares bununla dünya çempionatının seçmə mərhələlərində Cənubi Amerika zonasında ən çox qol vuran futbolçu olub. Aktivində 29 qol olan futbolçu bu göstəricidə Argentina millisinin kapitanı Lionel Messini (28) qabaqlayıb.**

Xatırladaq ki, Uruqvay millisi DÇ-2022-nin Cənubi Amerika üzrə seçmə mərhələsində 3-cü yeri tutaraq mundiala yüksəlib.



## Britaniya sakini dəniz sahilində xəzinə tapdı

**Böyük Britaniya sakini işərisində qədim sikkələr və qiymətli daşlar olan sandıq tapıb. Oxu.az xəbər verir ki, 38 yaşlı Cenni Fitcerald ailəsi ilə birlikdə Norfolk qraflığında çimərlikdə təmizlik işləri apararkən qumda basdırılmış sandıqla rastlaşıb.**

Qadın uşaqlarıyla birgə diş fırçaları ilə sandığın üzərindəki qumu təmizləyib. Onun içərisindən əsasən Viktorian dövrünə və 18-ci əsrin sonlarında Britaniyanı idarə edən Kral III Corcun zamanına aid yüzə yaxın sikkə çıxıb. Sandığın içərisində qiymətli daşlar, paslı cib saatı, köhnə ətir şüşəsi, möhürlü üzük, üzərində "Ernest" adı həkk olunmuş gümüş kibrit tutacağı da olub.

## Braziliya millisindən darmadağın, Peru pley-offda

Futbol üzrə DÇ-2022-nin seçmə mərhələsinin Cənubi Amerika zonasında sonuncu turun oyunları keçirilib. Qol.az xəbər verir ki, səfərdə Boliviyaya 4 cavabsız qolla qalib gələn Braziliya millisi 45 xalla qrupda 1-ci yeri tutub. "Sambaçılar" Argentina ilə yarımçıq qalan matçın nəticəsindən asılı olmayaraq liderliyi təmin edib.



İkinci yerlə mundiala yollanan Argentina yığması isə Ekvadorla qarşılaşmada 1:1 hesablı heç-heçə edib. Paraqvaya qalib gələn (2:0) Peru 5-ci yerin sahibi kimi mundial şansını saxlayıb.

## Dietoloqlar tumun təhlükələri barədə xəbərdarlıq edirlər



Rusiyalı dietoloq Marina Makişa "Moskva 24" telekanalına müsahibəsində günəbaxan tumlarının həddindən artıq istehlakının insan orqanizmi üçün təhlükəli ola biləcəyini deyib. Onun sözlərinə görə, bu məhsul çox yüksək kalorili olduğu üçün çəki artımına səbəb ola bilər. 50 qram soyulmuş toxumda təxminən 400 kilokalori var. Makişa qeyd edir ki, bu, tam yeməklə müqayisə oluna bilər. SİA bu barədə "moslenta.ru"saytına istinad edir.

...Dietoloq, tibb elmləri doktoru, professor Mixail Ginzburg, öz növbəsində, toxumların qastritli insanlara zərər verə biləcəyini əlavə edib. Onun sözlərinə görə, toxumları çeynədiyimiz zaman udduqlarımızda olduqca kəskin kənarlar əmələ gətirir.

...Və bu kənarlar eroziyanı olduqca yaxşı qıcıqlandıra bilər, yəni qastrit və mədə xorası xəstəliyinin şiddətlənməsinə səbəb ola bilər. Qeyd edək ki, əvvəllər diyetoloq Solomatina toxumları yaz pəhrizinə daxil etməyi məsləhət görürdü, çünki onlar çoxlu sink ehtiva edir və reproduktiv funksiyaları yaxşılaşdırır.

*Nazlı Babayeva*

# Hil çayı mədə turşuluğunu aradan qaldırmaq üçün faydalıdır

**Bu gün dünyada geniş yayılan hili çox vaxt "kralların ədviyyatı" adlandırırlar. Vətəni Hindistan olan bu bitki Şri-lankada, Çində, Afrikada və Amerikada da becərilir.**

Hilin bazarlarda ən çox tünd yaşıl və ağ rəngi satılır. Hil toxumu yeməklərə, çaya və qəhvəyə qarışdırılıraraq istifadə edilir. Əgər mədə turşuluğu çoxalaraq qida borusunu yandırırsa, ən yaxşı üsullardan biri hil çayının içilməsidir. Qastrit və mədə qıcqırması zamanı çox faydalıdır.

Hil çayı yüksək xolesterini aşağı salır və immuniteti qüvvətləndirir. İnfeksion xəstəliklərdən və qripdən əziyyət çəkənlərin onun çayını dəmləyib içmək məsləhətdir.

Ağızdan xoşagəlməz qoxu gəlirsə, hil dənələrini çeynəmək lazımdır. Çeynədikdən sonra isə udmaq məsləhətdir. Çünki ola bilər ki, ağız qoxusu mədədə olan problemlərdən yaransın və hilin toxumlarını udmaqla mədəni də müalicə etmək olar. Hil ürəkbulanma zamanı da yaxşı təsir edir, iştahanı artırır, mübadilə prosesini yaxşılaşdırır, köplə mübarizə aparır. Artıq çəkidən azad olmaq üçün də hil çox faydalı vasitələrdən biridir. Onun aromatik yağlarını suya əlavə edib vanna qəbul olunması həm stres və gərginliyi aradan qaldırır, həm də əsəbləri sakitləşdirir.



Təbii antiseptik olduğundan soyuqdəymə zamanı onu çay və suya atıb xəstəyə vermək çox müsbət təsir göstərir. Boğaz ağrıları zamanı hil dəmləmələri ilə qarqara çox yaxşı təsirə malikdir. Diş ağrılarını azaldır, ürəyin fəaliyyətini yaxşılaşdırır.

Axşamlar 1 stəkan nanə çayına 5-6 ədəd hil dənəsi qarışdırıb dəmləmək və yatmazdan 1 saat əvvəl içmək yuxunu rahatlaşdırır. İnfeksion xəstəliklər zamanı da hil çayı içmək orqanizmə müsbət təsir göstərir.

Çalışmaq lazımdır ki, hili qabığından ayrılmasın, çünki əks halda o, əz ətrini çox tez itirir.

**Baş redaktor:**
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220